# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 26 (3636) Cümə axşamı / 23 iyul 2026-cı il Qiyməti 40 qəpik


MÜSAHİB

## Almaniya ilə iqtisadi əlaqələr dərinləşəcək



**Vüqar Bayramov,**
Milli Məclisin deputatı

***Prezident İlham Əliyevin Almaniyaya səfəri kitərəfli münasibətlər, regional və qlobal geosiyasi proseslər baxımından geniş təhlil olunmaqdadır. Bu səfər hazırkı geosiyasi şəraitdə Azərbaycan-Almaniya münasibətlərində yeni mərhələnin başlanğıcı hesab olunmaqla yanaşı, Avropaya müəyyən mesajlar verdiyini istisna etmir. Müsahibimiz millət vəkili Vüqar Bayramovdur:***

*Almaniya ilə münasibətlərin inkişafı Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının daha da dərinləşməsi baxımından mühüm əhəmiyyət daşıyır*

Səh. 3

# Siyasi dialoqdan strateji tərəfdaşlığa

***Prezident İlham Əliyevin Avropa İttifaqının ən böyük iqtisadi gücü sayılan Almaniyaya rəsmi səfəri ölkəmizin artan nüfuzu və strateji əhəmiyyətinin yüksəlməsi kimi dəyərləndirilir. Dövlət başçısının səfər çərçivəsində keçirdiyi ikitərəfli görüşlər və aparılan müzakirələr Almaniyanın Azərbaycanla əməkdaşlığı genişləndirməkdə və münasibətləri üst səviyyəyə çıxarmaqda maraqlı olduğunu bir daha göstərdi. Qeyd edək ki, iyulun 21-də Berlində Almaniya-Azərbaycan sənədlərinin imzalanması mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Almaniya Federativ Respublikasının Federal Kansleri Fridrix Merts Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında ikitərəfli tərəfdaşlıq üçün strateji gündəliyə dair Birgə Bəyannaməni imzalayıblar. Tədbirdə, həmçinin Azərbaycan-Almaniya Biznes Şurasının yaradılmasına və fəaliyyətinə dair Birgə Bəyannamə imzalanıb.***



Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxşaxəli və çoxqütblü xarici siyasət kursu son illərdə ölkəmizin həm regional, həm də qlobal səviyyədə etibarlı tərəfdaş kimi mövqeyini əhəmiyyətli dərəcədə gücləndirib. Bu siyasətin növbəti mühüm nəticəsi Prezident İlham Əliyevin Almaniyaya rəsmi səfəri çərçivəsində bu ölkənin Kansleri Fridrix Merts ilə imzalanan "Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında ikitərəfli tərəfdaşlıq üçün strateji gündəliyə dair Birgə Bəyannamə" oldu.

Bu sənəd Azərbaycan-Almaniya münasibətlərində keyfiyyətcə yeni mərhələnin əsasını qoyur. Bəyannamə iki ölkə arasında əməkdaşlığı ayrı-ayrı sahələr üzrə münasibətlərdən çıxararaq vahid strateji çərçivəyə salır və siyasi dialoq, iqtisadiyyat, enerji, təhlükəsizlik, elm, texnologiya, təhsil və humanitar əməkdaşlıq istiqamətlərini uzunmüddətli inkişaf konsepsiyası ətrafında birləşdirir.

Almaniya İtaliyadan sonra Azərbaycanın Qərbi Avropanın böyük dövlətləri ilə strateji çərçivə sənədi imzaladığı ikinci ölkədir. Bu, Azərbaycanın Avropanın aparıcı siyasi və iqtisadi gücləri ilə münasibətlərinin dərinləşməsinin ardıcıl xarakter aldığını nümayiş etdirir. Avropa İttifaqının aparıcı siyasi və iqtisadi lokomotivi olan Almaniya Azərbaycan üçün xüsusi əhəmiyyət daşıyır. Məhz buna görə, Berlinlə strateji gündəliyin formalaşdırılması yalnız ikitərəfli münasibətlərin inkişafı baxımından deyil, həm də Azərbaycan-Avropa İttifaqı əlaqələrinin perspektivləri üçün mühüm siyasi əhəmiyyət kəsb edir. Təsadüfi deyil ki, imzalanan Birgə Bəyannamədə Azərbaycan-Avropa İttifaqı tərəfdaşlığının strateji əhəmiyyəti ayrıca vurğulanır. Almaniyanın bu yanaşmanı açıq şəkildə dəstəkləməsi Azərbaycanın Avropa ilə əməkdaşlığının daha da genişləndirilməsinə verilən mühüm siyasi dəstəyin ifadəsidir. Həmçinin Bəyannamədə yenilənmiş Azərbaycan-Avropa İttifaqı Tərəfdaşlıq Prioritetlərinə açıq dəstəyin ifadə olunması Azərbaycan-Avropa İttifaqı münasibətlərinin yeni mərhələsinə verilən töhfə kimi qiymətləndirilə bilər.

**■ Milli Məclisin deputatı, Azərbaycan-Almaniya Federativ Respublikası parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Jalə Əliyeva deyir ki, Prezident İlham Əliyevin Almaniyaya rəsmi səfəri və Berlində keçirilən yüksək səviyyəli görüşlər Azərbaycan-Almaniya münasibətlərində yeni siyasi və iqtisadi mərhələnin əsasını qoydu.**

Deputatın sözlərinə görə, səfər çərçivəsində imzalanan sənədlər və verilən bəyanatlar göstərir ki, tərəflər artıq ənənəvi iqtisadi əlaqələri daha geniş strateji əməkdaşlıq formatına keçirməyə çalışırlar. Onun fikrincə, enerji təhlükəsizliyi, yaşıl enerji, nəqliyyat-logistika və investisiya sahələri bundan sonra iki ölkə arasında münasibətlərin əsas istiqamətlərini təşkil edəcək. Jalə Əliyeva bildirib ki, səfərin ən mühüm nəticələrindən biri siyasi dialoqun institusional əsaslarının daha da möhkəmləndirilməsi olub.

"Almaniya Avropa İttifaqının aparıcı iqtisadi və siyasi gücü kimi Cənubi Qafqazda sabitliyin təmin olunmasına daha böyük maraq göstərir. Prezident İlham Əliyevin də vurğuladığı kimi, Azərbaycan-Almaniya münasibətlərinin inkişafı təkcə ikitərəfli əlaqələrə deyil, bütövlükdə regionda əməkdaşlıq və sülhün möhkəmlənməsinə xidmət edəcək", - deputat qeyd edir. O vurğulayıb ki, enerji əməkdaşlığı münasibətlərin əsas dayağı olaraq qalır və Avropanın enerji təhlükəsizliyi gündəliyində Azərbaycanın rolu son illərdə əhəmiyyətli dərəcədə artıb. "Almaniya Kansleri Fridrix Mertsin enerji sahəsində əməkdaşlığın daha da şaxələndirilməsində maraqlı olduqlarını bəyan etməsi göstərir ki, söhbət artıq təkcə təbii qaz tədarükündən deyil, həm də bərpa olunan enerji sahəsində uzunmüddətli tərəfdaşlığın formalaşdırılmasından gedir", - deyə o bildirir.

Səh. 2

> *Almaniya Avropa İttifaqının aparıcı iqtisadi və siyasi gücü kimi Cənubi Qafqazda sabitliyin təmin olunmasına daha böyük maraq göstərir*

> *Azərbaycanın Avropanın enerji təhlükəsizliyində artan rolu Almaniya kimi aparıcı iqtisadiyyatlarla münasibətlərin daha da dərinləşdirilməsini zəruri edir*

> *Almaniyanın sənaye, maşınqayırma, rəqəmsallaşma, süni intellekt, kibertəhlükəsizlik, peşə təhsili və tətbiqi elmlər sahəsində zəngin təcrübəsi bu istiqamətlərdə əməkdaşlıq üçün geniş imkanlar açır*

GÜNDƏM




## Milli Mətbuatımız 151 yaşında

■ Jurnalistika heç vaxt sensasiya naminə həqiqətdən uzaqlaşmamalıdır

■ Mətbuat dövrü başa çatır, amma medianın missiyası davam edir

■ Jurnalist etikası yalnız peşə qaydaları toplusu deyil, həm də cəmiyyət qarşısında mənəvi məsuliyyətdir

■ Çap mediasının yaşaması və inkişafı üçün dövlət dəstəyi institutu qorunmalıdır

Səh. 3

GÜNÜN FOTOSU...



Ukrayna əsgəri rus dronlarını vurur

GÜNÜN SİTATI

*"İran bu andan Hörmüz boğazında hər hansı gəmiyə atəş açarsa, ABŞ körpü və ya elektrik stansiyalarını vuracaq"*



**Donald Tramp,**
ABŞ Prezidenti

KARİKATURA



Onların qara günləri başlayıb

## Realda böyük, sənəddə kiçik

**Elnur Azadov,**
əmlak və tikinti məsələləri üzrə ekspert

Mənzil sahəsi ilə bağlı yaranan problemlərin əsas səbəbi bəzi tikinti şirkətlərinin satış zamanı sahəni qanunvericiliyin tələblərinə uyğun hesablamamasıdır.

Səh. 4

STATİSTİKA



**■ Yanvar-iyun aylarında neft məhsullarının istehsalı sahəsində istehsalın ümumi dəyəri 2 milyard 903 milyon manat olmaqla, əvvəlki illə müqayisədə 5,7 faiz azalıb.**

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, neft məhsullarından avtomobil benzininin istehsalı 4,7 faiz artıb, mazut istehsalı 9,2 faiz, ağ neft istehsalı 22,5 faiz, neft bitumu istehsalı isə 47,9 faiz azalıb.



Səh. 5

# Neft yenidən bahalaşır

XƏBƏR LENTİ

## Milli Mətbuat Günü qeyd olunub



***İyulun 22-də Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə Milli Mətbuat Gününə həsr olunan tədbir keçirilib. Əvvəlcə Dövlət Himni səsləndirilib.***

Sonra Ümummilli Lider Heydər Əliyevin və Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda mübarizədə canından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Tədbirdə çıxış edən Medianın İnkişafı Agentliyinin Müşahidə Şurasının sədri, AZƏRTAC-ın İdarə Heyəti sədrinin müavini Dağbəyi İsmayılov Azərbaycan milli mətbuatının 151 illik inkişaf yolunun ölkənin ictimai-siyasi və mədəni həyatında mühüm rol oynadığını bildirib. Qeyd olunub ki, Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi media siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir, medianın müstəqilliyinin gücləndirilməsi, peşəkar jurnalistikanın inkişafı və informasiya təhlükəsizliyinin təmin olunması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Vurğulanıb ki, milli mətbuatın zəngin ənənələrinin qorunması və gələcək nəsillərə ötürülməsi qarşıda duran əsas vəzifələrdəndir.

Azərbaycan Respublikası Milli Məclisinin deputatı, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə qeyd edib ki, Azərbaycan milli mətbuatı ölkəmizin ictimai fikir tarixində mühüm dönüş nöqtəsi olmaqla yanaşı, milli özünüdərkin və maarifçilik ideyalarının formalaşmasında mühüm rol oynayıb. O vurğulayıb ki, Azərbaycan mətbuatı ötən dövr ərzində cəmiyyətin inkişafına, milli dəyərlərin qorunmasına və ictimai şüurun formalaşmasına mühüm töhfələr verib.

Azərbaycan Mətbuat Şurası sədrinin müavini Səadət Məmmədova çıxışında müasir media mühitində etik jurnalistika prinsiplərinin, peşəkar həmrəyliyin və media subyektləri arasında əməkdaşlığın əhəmiyyətini vurğulayıb. Qeyd olunub ki, etibarlı informasiya mühitinin formalaşdırılması və cəmiyyətin düzgün məlumatlandırılması istiqamətində media nümayəndələrinin üzərinə mühüm vəzifələr düşür.

"Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin sədr müavini Rafiq Həşimov çıxışında Azərbaycan milli mətbuatının ayrılmaz tərkib hissəsi olan televiziya və radionun cəmiyyətin maarifləndirilməsində, milli-mənəvi dəyərlərin təbliğində və mədəni irsin gələcək nəsillərə çatdırılmasında mühüm rol oynadığını qeyd edib. O bildirib ki, sürətlə dəyişən informasiya mühitində medianın üzərinə düşən məsuliyyət daha da artır, peşəkarlıq, operativlik və ictimai etimad isə bu sahənin əsas prinsipləri olaraq qalır.

Daha sonra Azərbaycan milli mətbuatının keçdiyi inkişaf yolunu əks etdirən videoçarx nümayiş olunub. Tədbir bədii hissə ilə davam edib.

## Avropa İttifaqı aviaşirkətlərə xəbərdarlıq edib



**Avropa İttifaqının Aviasiya Təhlükəsizliyi Agentliyi (EASA) aviaşirkətlərə İordaniyanın hava məkanında uçuşlar həyata keçirməməyi tövsiyə edib. Buna səbəb kimi krallığın getdikcə daha çox İranın raket və pilotsuz uçuş aparatlarının hədəfinə çevrilməsi göstərilir.**

"2026-cı il iyulun ortalarından etibarən təhlükəsizliklə bağlı vəziyyət sürətli şəkildə pisləşib və İordaniyanın hava məkanına təsir göstərən hərbi əməliyyatların intensivliyi davamlı şəkildə artıb", - deyə EASA-nın bəyanatında deyilir.

EASA artıq aviaşirkətlərə Bəhreyn, Küveyt, Qətər, Birləşmiş Ərəb Əmirlikləri, İran, İraq və Livanın hava məkanından da istifadə etməməyi tövsiyə edir. Xatırladaq ki, ABŞ-İran münasibətlərində növbəti gərginlik iyulun 8-də başlayıb. Həmin gün ABŞ Silahlı Qüvvələri Vaşinqton və Tehran arasında imzalanmış memorandumdan sonra ilk dəfə olaraq, Hörmüz boğazında ticarət gəmisinə hücuma cavab olduğu iddiası ilə İran ərazisinə bir neçə silsilə zərbə endirib.

Elə həmin gün ABŞ Prezidenti Donald Tramp İranla atəşkəs rejiminin dayandırıldığını bəyan edib. Buna cavab olaraq Tehran Bəhreyn, İordaniya, Qətər, Küveyt, BƏƏ və Oman ərazisində yerləşən ABŞ obyektlərinə zərbələr endirməyə başlayıb.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
Təsisçi və baş redaktor:
Sevinc Seyidova
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303). "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "Zaman" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -1500
"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, 'KAPITALBANK' ASC 1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611 M/h: AZ37NABZ01350100000000001944 S.W.İ.F.T.Bik AİİBAZ 2X
Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Siyasi dialoqdan strateji tərəfdaşlığa

Gündəm

əvvəli 1-ci səhifədə

Deputatın sözlərinə görə, münasibətlərin yeni mərhələsinin əsas istiqamətlərindən biri də yaşıl enerji əməkdaşlığıdır. "Azərbaycan Xəzər dənizinin külək enerjisi potensialından istifadə etməklə Avropaya yaşıl elektrik ixrac etməyi strateji məqsəd kimi müəyyənləşdirib. Almaniyanın texnologiya, investisiya və innovasiya imkanları Azərbaycanın resurs potensialı ilə birləşdikdə hər iki tərəf üçün qarşılıqlı faydalı əməkdaşlıq modeli formalaşır. Avropa İttifaqının Yaşıl Enerji Dəhlizi layihəsinə dəstəyi də bunun göstəricisidir", - Jalə Əliyeva əlavə edir.

O bildirir ki, tranzit və logistika sahəsi də əməkdaşlığın prioritet istiqamətlərindən birinə çevrilir.

"Qlobal ticarət marşrutlarının yenidən formalaşdığı bir dövrdə Azərbaycanın Orta Dəhlizdə oynadığı rol Almaniyanın da diqqət mərkəzindədir. Azərbaycan Şərqlə Qərb arasında etibarlı logistika qovşağı kimi çıxış edir və bu marşrut Almaniya üçün də yeni iqtisadi imkanlar yaradır.

Bu baxımdan Bakı ilə Berlin arasında nəqliyyat əməkdaşlığı artıq təkcə iktisadi deyil, həm də Avrasiya miqyasında strateji əhəmiyyət daşıyır", - deputat vurğulayır. Jalə Əliyeva qeyd edir ki, Almaniya Azərbaycanın əsas texnologiya və sənaye tərəfdaşlarından biridir. "Yeni mərhələdə alman şirkətlərinin Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpa layihələrinə, yaşıl enerji obyektlərinə, sənaye parklarına və rəqəmsal iqtisadiyyat layihələrinə marağının artacağı gözlənilir. Bu isə investisiya əməkdaşlığını keyfiyyətcə yeni səviyyəyə yüksəldə bilər", - deyə o bildirib.

Deputatın fikrincə, Berlin səfəri Azərbaycan-Almaniya münasibətlərinin artıq yalnız enerji tədarükü ilə məhdudlaşmadığını nümayiş etdirdi. "İmzalanan sənədlər və verilən siyasi mesajlar iki ölkə arasında strateji tərəfdaşlığın daha geniş

> *Prezident İlham Əliyevin Almaniyaya səfəri bir daha göstərir ki, Azərbaycan Avropa ölkələri ilə münasibətlərini qarşılıqlı hörmət, bərabərhüquqlu tərəfdaşlıq və ortaq maraqlar prinsipi əsasında inkişaf etdirməkdə qərarlıdır*

məzmun aldığını göstərir. Yaşıl enerji, tranzit dəhlizləri, sənaye əməkdaşlığı, rəqəmsal inkişaf və regional sabitlik bundan sonra münasibətlərin əsas sütunlarını təşkil edəcək. Bu isə Azərbaycanın Avropanın enerji və logistika xəritəsində artan rolunu bir daha təsdiqləyir və Almaniya ilə əlaqələrin uzunmüddətli perspektivdə daha da dərinləşəcəyindən xəbər verir", - deyə Jalə Əliyeva əlavə edir.

■ **Milli Məclisin deputatı Afət Həsənova deyir ki, Azərbaycan Prezidenti İlham Əliyevin Almaniyaya rəsmi səfəri və keçirdiyi yüksək səviyyəli görüşlər iki ölkə arasında siyasi dialoqun davamlı xarakter aldığını bir daha nümayiş etdirir.**

Deputat bildirir ki, son illər beynəlxalq münasibətlər sistemində baş verən dəyişikliklər fonunda Bakı ilə Berlin arasında qarşılıqlı maraqlara əsaslanan əməkdaşlığın genişlənməsi həm Azərbaycan, həm də Avropa üçün mühüm əhəmiyyət daşıyır: "Azərbaycanın Avropanın enerji təhlükəsizliyində artan rolu Almaniya kimi aparıcı iqtisadiyyatlarla münasibətlərin daha da dərinləşdirilməsini zəruri edir. Ölkəmizin etibarlı enerji tərəfdaşı kimi formalaşdırdığı nüfuz siyasi münasibətlərin də yeni məzmun qazanmasına imkan yaradır. Bu baxımdan Prezident İlham Əliyevin Almaniyada keçirdiyi görüşlər yalnız ikitərəfli əlaqələrin cari vəziyyətini deyil, həm də gələcək əməkdaşlığın prioritet istiqamətlərini müəyyən edir.

Azərbaycan və Almaniya arasında münasibətlər enerji sahəsi ilə məhdudlaşmır. Sənaye, "yaşıl enerji", nəqliyyat-logistika, rəqəmsal texnologiyalar, elm, təhsil və investisiya istiqamətlərində əməkdaşlıq üçün geniş potensial mövcuddur. Xüsusilə Azərbaycanın Orta Dəhliz üzrə artan tranzit imkanları Avropa şirkətləri üçün yeni iqtisadi perspektivlər açır".



Deputat vurğulayır ki, Avropa İttifaqı alternativ enerji və nəqliyyat marşrutlarının inkişafına xüsusi diqqət yetirir: "Azərbaycan isə coğrafi mövqeyi, müasir nəqliyyat infrastrukturu və etibarlı tərəfdaş nüfuzu ilə bu prosesdə mühüm rol oynayır. Almaniyanın bu istiqamətdə marağının artması təbiidir və yüksək səviyyəli təmaslar gələcək birgə layihələrin reallaşdırılması üçün əlverişli zəmin yaradır.

Səfər çərçivəsində aparılan müzakirələr regional təhlükəsizlik və Cənubi Qafqazda davamlı sülh gündəliyi baxımından da xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan bölgədə uzunmüddətli sabitliyin təmin olunması istiqamətində ardıcıl mövqe nümayiş etdirir və beynəlxalq tərəfdaşlarla açıq dialoqa üstünlük verir. Almaniya ilə siyasi məsləhətləşmələrin intensivləşməsi bu baxımdan qarşılıqlı etimadın daha da möhkəmlənməsinə xidmət edir".

A.Həsənovanın sözlərinə görə, Prezident İlham Əliyevin Almaniyaya səfəri bir daha göstərir ki, Azərbaycan Avropa ölkələri ilə münasibətlərini qarşılıqlı hörmət, bərabərhüquqlu tərəfdaşlıq və ortaq maraqlar prinsipi əsasında inkişaf etdirməkdə qərarlıdır: "Bu cür yüksək səviyyəli görüşlər yalnız mövcud əməkdaşlığı möhkəmləndirmir, eyni zamanda gələcəkdə iqtisadi, siyasi və humanitar sahələrdə yeni təşəbbüslərin həyata keçirilməsi üçün də geniş imkanlar yaradır".

■ **Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini, Azərbaycan-Almaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Azər Badamov bildirir ki, Prezident İlham Əliyevin Almaniya Federativ Respublikasına rəsmi səfəri iki ölkə arasında siyasi, iqtisadi və humanitar əməkdaşlığın inkişafında mühüm hadisə kimi qiymətləndirilməlidir.** Bu səfər təkcə ikitərəfli münasibətlərin cari vəziyyətinin qiymətləndirilməsi deyil, həm də gələcək əməkdaşlığın strateji istiqamətlərinin müəyyənləşdirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Dövlət başçısının keçirdiyi görüşlər, əldə olunan razılaşmalar və imzalanan sənədlər göstərir ki, Azərbaycan-Almaniya münasibətləri keyfiyyətcə yeni mərhələyə qədəm qoyur:

"Almaniya Azərbaycanın Avropa İttifaqında ən mühüm tərəfdaşlarından biridir. İki ölkə arasında diplomatik münasibətlər 1992-ci ildə qurulsa da, əlaqələrin inkişafında əsas dönüş nöqtəsi 1996-cı ildə Ümummilli Lider Heydər Əliyevin Almaniyaya rəsmi səfəri olmuşdur.

Məhz həmin səfərdən sonra siyasi dialoq genişlənmiş, iqtisadi əməkdaşlıq sürətlənmiş və humanitar əlaqələr yeni məzmun kəsb etmişdir. Sonrakı dövrdə bu münasibətlər qarşılıqlı etimad və tərəfdaşlıq prinsipləri əsasında ardıcıl inkişaf etmişdir". Onun sözlərinə görə, hazırkı dövrdə beynəlxalq münasibətlər sistemi sürətlə dəyişir.

Geosiyasi gərginliklər, enerji və ərzaq təhlükəsizliyi ilə bağlı çağırışlar, qlobal ticarət marşrutlarının yenidən formalaşması dövlətlər arasında əməkdaşlığın yeni formatlarını zəruri edir. Belə mürəkkəb şəraitdə Prezident İlham Əliyevin həyata keçirdiyi praqmatik və balanslaşdırılmış xarici siyasət nəticəsində Azərbaycan beynəlxalq münasibətlər sistemində etibarlı və məsuliyyətli tərəfdaş kimi mövqeyini daha da möhkəmləndirib: "Almaniya Avropa İttifaqının aparıcı dövlətlərindən biri kimi Azərbaycan üçün mühüm tərəfdaşdır. Bu baxımdan Prezident İlham Əliyevin Almaniyaya səfəri həm ikitərəfli münasibətlərin inkişafı, həm də Azərbaycan-Avropa İttifaqı əlaqələrinin yeni mərhələyə keçməsi baxımından mühüm siyasi mesajlar verir".

Millət vəkili bildirir ki, Azərbaycan həm Şərqlə Qərbi, həm də Şimalla Cənubu birləşdirən mühüm nəqliyyat və logistika qovşağıdır. Xüsusilə Azərbaycanın təşəbbüsü ilə inkişaf etdirilən Orta Dəhliz son illərdə Avropa ilə Asiya arasında ən perspektivli yükdaşımalar marşrutlarından birinə çevrilib. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu, müasir avtomobil yolları və Ələt Azad İqtisadi Zonası ölkəmizin tranzit imkanlarını əhəmiyyətli dərəcədə artırıb. Almaniya kimi ixracyönümlü iqtisadiyyata malik dövlət üçün bu marşrut yeni iqtisadi və logistika imkanları yaradır:

"Enerji sahəsi Azərbaycan-Almaniya əməkdaşlığının ən perspektivli istiqamətlərindən biridir. Avropada enerji təhlükəsizliyi məsələlərinin prioritetə çevrildiyi şəraitdə Azərbaycan etibarlı enerji tərəfdaşı kimi xüsusi əhəmiyyət qazanıb. Cənub Qaz Dəhlizi vasitəsilə Azərbaycan qazı artıq Avropanın onlarla



istehlakçısına çatdırılır və ölkəmiz enerji mənbələrinin şaxələndirilməsinə mühüm töhfə verir. Bununla yanaşı, Azərbaycanın zəngin külək və günəş enerjisi potensialı, Xəzər dənizində yaşıl enerji layihələri və Qara dəniz marşrutu üzrə yaşıl enerji təşəbbüsləri Almaniya şirkətləri üçün də yeni əməkdaşlıq imkanları yaradır". A.Badamov qeyd edir ki, iqtisadi münasibətlər dinamik inkişaf edir. Almaniya hazırda Azərbaycanın Cənubi Qafqazda ən iri ticarət tərəfdaşlarından biridir. Ticarət dövriyyəsinin davamlı artması, Almaniya kapitallı yüzlərlə şirkətin Azərbaycanda uğurla fəaliyyət göstərməsi iqtisadi əlaqələrin möhkəm təməl üzərində qurulduğunu göstərir:

"Eyni zamanda Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar, sənaye parklarının yaradılması, vergi və gömrük güzəştləri, investor hüquqlarının qorunması istiqamətində görülən tədbirlər Almaniya biznes dairələrinin marağını daha da artırır. Qeyri-neft sektorunun inkişafı, rəqəmsal iqtisadiyyatın qurulması və innovasiya əsaslı inkişaf modeli Azərbaycanın iqtisadi siyasətinin prioritetlərindəndir. Almaniyanın sənaye, maşınqayırma, rəqəmsallaşma, süni intellekt, kibertəhlükəsizlik, peşə təhsili və tətbiqi elmlər sahəsində zəngin təcrübəsi bu istiqamətlərdə əməkdaşlıq üçün geniş imkanlar açır.

Texnologiya transferi, birgə istehsal müəssisələrinin yaradılması və innovasiya layihələrinin həyata keçirilməsi hər iki ölkənin maraqlarına tam cavab verir". A.Badamov qeyd edir ki, işğaldan azad

> *Enerji sahəsi Azərbaycan-Almaniya əməkdaşlığının ən perspektivli istiqamətlərindən biridir*

olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və yenidənqurma işləri də Almaniya şirkətləri üçün mühüm perspektivlər yaradır. "Ağıllı şəhər", "ağıllı kənd", yaşıl enerji, müasir infrastruktur və rəqəmsal idarəetmə layihələri qabaqcıl texnologiyalara malik Almaniya şirkətlərinin bu prosesdə fəal iştirak etməsinə əlverişli zəmin formalaşdırır:

"Prezident İlham Əliyevin Almaniyaya rəsmi səfəri çərçivəsində Almaniya Federal Kansleri Fridrix Mers ilə keçirilən görüş və mətbuata verilən birgə bəyanat səfərin əsas siyasi nəticəsi oldu. Dövlət başçıları ikitərəfli münasibətlərin gələcək inkişafı ilə bağlı ortaq baxışlarını ortaya qoyaraq əməkdaşlığın uzunmüddətli strateji xarakter daşıdığını vurğuladılar. Danışıqlarda siyasi dialoqun intensivləşdirilməsi, iqtisadi əməkdaşlığın genişləndirilməsi, enerji təhlükəsizliyi, yaşıl enerji, Orta Dəhliz, rəqəmsal transformasiya, innovasiya, elm, təhsil və humanitar əlaqələrin inkişafı əsas prioritetlər kimi müəyyən edildi.

Səfər çərçivəsində "İkitərəfli Tərəfdaşlıq üçün Strateji Gündəlik haqqında Birgə Bəyannamə"nin imzalanması xüsusi əhəmiyyət kəsb edir. Bu sənəd Azərbaycan-Almaniya münasibətlərinin yeni strateji mərhələyə yüksəldiyini təsdiqləyir və gələcək əməkdaşlığın institusional əsaslarını müəyyənləşdirir. Sənəd siyasi dialoqun dərinləşdirilməsini, qarşılıqlı investisiyaların təşviqini, sənaye kooperasiyasını, müdafiə sənayesi, elm, texnologiya, innovasiya, rəqəmsal iqtisadiyyat və humanitar sahələrdə əlaqələrin genişləndirilməsini nəzərdə tutur.

Səfərin mühüm nəticələrindən biri də Azərbaycan-Almaniya Biznes Şurasının yaradılması barədə əldə olunan razılaşmadır. Bu yeni platforma iş adamları arasında birbaşa əməkdaşlığı genişləndirəcək, investisiya layihələrinin hazırlanmasını sürətləndirəcək, texnologiya transferinə və birgə istehsalın inkişafına mühüm töhfə verəcək. Bu təşəbbüs iqtisadi əlaqələrin institusional əsaslarını daha da möhkəmləndirəcək və özəl sektorun əməkdaşlıq imkanlarını əhəmiyyətli dərəcədə artıracaq".

Millət vəkili qeyd edir ki, bütün bunlar Prezident İlham Əliyevin Almaniyaya rəsmi səfəri yalnız diplomatik protokol xarakter daşımadığını göstərir: "Bu səfər Azərbaycan-Almaniya münasibətlərinin strateji məzmununu zənginləşdirən, siyasi etimadı möhkəmləndirən və iqtisadi əməkdaşlığa yeni impuls verən mühüm hadisədir. İmzalanmış sənədlər, əldə olunan razılaşmalar və müəyyən edilmiş prioritetlər qarşıdakı illərdə ticarət dövriyyəsinin artmasına, qarşılıqlı investisiyaların genişlənməsinə, yeni texnologiyaların tətbiqinə və iki ölkə arasında strateji tərəfdaşlığın daha da möhkəmlənməsinə xidmət edəcək".

✍ Tahirə Qafarlı

# Milli Mətbuatımız 151 yaşında

***Azərbaycan Milli Mətbuatının yaranmasının 151 ili tamam olur. Milli Mətbuatımız bu müddət ərzində dövlətçilik ənənələrinin möhkəmləndirilməsində, milli şüurun formalaşmasında, cəmiyyətin maariflənməsində və vətəndaş cəmiyyətinin inkişafında mühüm rol oynayıb. Cəmiyyətin güzgüsü sayılan mətbuat bu dəfə öz fəaliyyətinə elə həmin güzgüdən baxır, keçdiyi yolu dəyərləndirir. "Bakı Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev bildirib ki, Azərbaycan Milli Mətbuatının 151 illik yubileyi bütövlükdə ölkənin ictimai həyatında hər kəsin önəm verdiyi əlamətdar hadisələrdən biridir. Baş redaktorun sözlərinə görə, milli mətbuatın yaranma tarixinin və onun ildönümlərinin artıq cəmiyyət tərəfindən qəbul edilən, dəyər verilən mühüm hadisəyə çevrilməsi sevindirici haldır.***




## Gündəm

"Azərbaycan Milli Mətbuatı 151 il ərzində böyük və şərəfli inkişaf yolu keçib. Dünyada bu qədər zəngin mətbuat tarixinə malik xalqlar çox deyil. Bu, həm xalqımız, həm də dövlətimiz üçün qürur mənbəyidir. Milli mətbuatımız müxtəlif ictimai-siyasi mərhələlərdən keçərək hər dövrün çətinliklərini aradan qaldırmağı bacarıb, zamanın tələblərinə uyğun yenilənərək inkişafını davam etdirib", - deyə A.Quliyev bildirib.

A.Quliyev qeyd edib ki, ötən əsrdə yalnız çap mediasından ibarət olan Azərbaycan mətbuatı bu gün televiziya, radio, xəbər portalları və sosial şəbəkələri özündə birləşdirən geniş media sisteminə çevrilib:

"Bu gün Azərbaycanda çoxşaxəli media mühiti formalaşıb. Çap mətbuatı ilə başlanan yol artıq onlayn media, televiziya, radio və rəqəmsal platformalar vasitəsilə daha geniş auditoriyaya çıxış əldə edib. Bu, milli medianın inkişafının mühüm göstəricisidir".

Baş redaktor hesab edir ki, əldə olunan uğurlarla yanaşı, həllini gözləyən problemlər də açıq müzakirə olunmalıdır.

"Belə əlamətdar günlərdə təkcə uğurlardan danışmaq kifayət deyil. Problemləri də obyektiv şəkildə qiymətləndirməliyik ki, gələcək inkişaf üçün düzgün istiqamətlər müəyyənləşdirilsin".

A.Quliyev, xüsusilə çap mediasının dövlət tərəfindən dəstəklənməsinin vacibliyini vurğulayıb. Onun sözlərinə görə, müstəqil çap mediasına göstərilən dəstəyin zəifləməsi gələcəkdə bu sahənin inkişafına mənfi təsir göstərə bilər:

"Çap mediasının yaşaması və inkişafı üçün dövlət dəstəyi institutu qorunmalıdır. Bu dəstəyin zəifləməsinə imkan vermək olmaz. Xüsusilə müstəqil çap mediasının fəaliyyətinin davamlılığı baxımından bu məsələ strateji əhəmiyyət daşıyır".

A.Quliyev jurnalistlərin sosial müdafiəsinin gücləndirilməsinin də günün aktual məsələlərindən olduğunu bildirib. O qeyd edib ki, media əməkdaşlarının əməkhaqqı səviyyəsi digər sahələrlə müqayisədə aşağı olduğundan onların pensiya təminatı da qənaətbəxş deyil.

"Jurnalistlərin sosial rifahının yaxşılaşdırılması, xüsusilə pensiya təminatında onların əməyinin xüsusi meyarlarla qiymətləndirilməsi vacibdir. Bu gün media əməkdaşlarının pensiyaları digər peşə sahibləri ilə müqayisədə xeyli aşağıdır. Bu istiqamətdə qanunvericilik səviyyəsində yeni mexanizmlərin tətbiqinə ehtiyac var. Əgər jurnalistlərin sosial müdafiəsi gücləndirilərsə, bu, bütövlükdə Azərbaycan mediasının gələcək inkişafına mühüm töhfə verəcək".

■ **Əməkdar jurnalist Qulu Məhərrəmli bildirib ki, Azərbaycan Milli Mətbuatının 151 illik yubileyi təkcə keçilən tarixi yolun xatırlandığı gün deyil, həm də medianın bugünkü vəziyyətinə və gələcəyinə yenidən baxmaq üçün mühüm fürsətdir.** Onun sözlərinə görə, rəqəmsal texnologiyaların sürətlə inkişaf etdiyi, sosial şəbəkələrin informasiya istehsalında əsas platformalardan birinə çevrildiyi müasir dövrdə peşəkar jurnalistikanın üzərinə düşən məsuliyyət daha da artıb.

Q.Məhərrəmli hesab edir ki, bütün dəyişikliklərə baxmayaraq jurnalistikanın əsas missiyası dəyişməz olaraq qalır - həqiqəti cəmiyyətə olduğu kimi çatdırmaq:

"Jurnalistikanı "cəmiyyətin vicdanı" adlandırmaqdan daha çox "cəmiyyətin güzgüsü" kimi xarakterizə etmək doğru yanaşmadır. Çünki media cəmiyyətdə baş verən hadisələri təhrif etmədən, olduğu kimi əks etdirməli, ictimai proseslərin obyektiv mənzərəsini yaratmalıdır. Əgər bu güzgü bulanıq olarsa və reallığı təhrif edərsə, cəmiyyət də özünü düzgün görə bilməz. Məhz buna görə jurnalistikanın ən mühüm vəzifəsi həqiqəti axtarmaq, onu peşəkarlıqla araşdırmaq və dürüst şəkildə ictimaiyyətə təqdim etməkdir". Q.Məhərrəmli bildirir ki, jurnalist etikası yalnız peşə qaydaları toplusu deyil, həm də cəmiyyət qarşısında mənəvi məsuliyyətdir. Onun sözlərinə görə, özünənəzarət jurnalistin peşəkarlığının tərkib hissəsi sayılsa da, həqiqəti gizlətməyə xidmət edən özünüsenzura medianın inkişafına ciddi maneə yaradır. Çünki gizlədilən həqiqət gec-tez üzə çıxır və bu, həm cəmiyyətə, həm də dövlətə daha böyük ziyan vurur. Əksinə, problemlərin vaxtında işıqlandırılması onların həlli üçün imkan yaradır və sağlam ictimai mühitin formalaşmasına töhfə verir.

*Çap mediasının yaşaması və inkişafı üçün dövlət dəstəyi institutu qorunmalıdır*

*Jurnalist etikası yalnız peşə qaydaları toplusu deyil, həm də cəmiyyət qarşısında mənəvi məsuliyyətdir*

*Jurnalistika heç vaxt sensasiya naminə həqiqətdən uzaqlaşmamalıdır*

*Mətbuat dövrü başa çatır, amma medianın missiyası davam edir*

Q.Məhərrəmli rəqəmsallaşmanı jurnalistikanın inkişafına xidmət edən mühüm amil kimi qiymətləndirir. Onun fikrincə, texnologiya medianın imkanlarını genişləndirib, informasiyanın operativliyini artırıb və auditoriyanı qlobal miqyasda böyüdüb. Lakin texnologiya heç vaxt peşəkarlığı əvəz edə bilməz. Gələcəyin mediası yüksək texnoloji imkanlarla yanaşı, həqiqətə sadiqliyi, etik prinsipləri və ictimai məsuliyyəti özündə birləşdirməlidir.

Professor hesab edir ki, medianın gələcəyi, ilk növbədə, cəmiyyətin inkişafından asılıdır. Güclü vətəndaş cəmiyyəti, azad düşüncə və peşəkar jurnalistika bir-birini tamamlayan anlayışlardır.

■ **"Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev bildirib ki, Azərbaycan mediası əvvəlki dövrlərlə müqayisədə tamamilə yeni inkişaf mərhələsinə qədəm qoyub. Rəqəmsal texnologiyaların sürətli inkişafı, informasiya mühitinin qloballaşması və dövlət tərəfindən media sahəsində həyata keçirilən ardıcıl islahatlar ölkəmizdə müasir media sisteminin formalaşmasına ciddi təkan verib.** Azərbaycan mediası artıq təkcə ölkədaxili auditoriyaya deyil, beynəlxalq informasiya məkanına da çıxış imkanlarını genişləndirir və milli maraqların müdafiəsində daha fəal mövqe nümayiş etdirir.

B.Quliyev qeyd edib ki, xüsusilə Vətən müharibəsindən sonra informasiya cəbhəsinin əhəmiyyəti daha da artdı. Jurnalist yalnız xəbəri çatdıran şəxs deyil, həm də informasiya təhlükəsizliyinin təmin olunmasında, dezinformasiyaya qarşı mübarizədə və dövlət maraqlarının beynəlxalq ictimaiyyətə düzgün təqdim edilməsində mühüm missiya daşıyır. Onun sözlərinə görə, peşəkar jurnalistikanın qarşısında ciddi çağırışlar da qalmaqdadır. Ən böyük problemlərdən biri sosial şəbəkələrdə sürətlə yayılan təsdiqlənməmiş məlumatlar, saxta xəbərlər və manipulyativ informasiya axınıdır. Belə bir şəraitdə operativlik qədər dəqiqlik, obyektivlik və məsuliyyət prinsipləri xüsusi əhəmiyyət kəsb edir. Jurnalistika heç vaxt sensasiya naminə həqiqətdən uzaqlaşmamalıdır: "Süni intellekt və rəqəmsal media imkanları jurnalistikanın inkişafı üçün yeni perspektivlər açır. Bu texnologiyalar jurnalistin yerini tutmamalı, əksinə onun fəaliyyətini daha keyfiyyətli və səmərəli təşkil etməsinə xidmət etməlidir. Çünki hadisəni düzgün qiymətləndirmək, milli maraqları nəzərə almaq və ictimai məsuliyyət hissi yalnız peşəkar jurnalistin üsünlüyüdür".

■ **Əməkdar jurnalist Azər Həsrət bildirib ki, Azərbaycan Milli Mətbuatının 151 illik yubileyi ərəfəsində media sahəsində baş verən qlobal dəyişikliklərə diqqət yetirmək vacibdir. Bu gün artıq təkcə Azərbaycanda deyil, bütün dünyada ənənəvi mətbuat özünün transformasiya mərhələsini yaşayır.**

"Qəzetlərin tirajının azalması, oxucu auditoriyasının rəqəmsal platformalara yönəlməsi və süni intellekt texnologiyalarının sürətli inkişafı informasiya məkanında yeni reallıqlar formalaşdırır. Əslində söhbət jurnalistikanın və ya medianın yoxa çıxmasından deyil, informasiyanın ötürülmə formasının dəyişməsindən gedir. Tarix boyu informasiya müxtəlif vasitələrlə insanlara çatdırılıb. Qədim dövrlərdə daş kitabələr, gil lövhələr, papiruslar və əlyazmalar bu funksiyanı yerinə yetirib. Daha sonra kağızın ixtirası ilə mətbuat meydana gəlib və əsrlər boyu cəmiyyətin əsas informasiya mənbəyinə çevrilib. Bu gün isə həmin missiyanı rəqəmsal platformalar, sosial media və yeni texnologiyalar üzərinə götürür", - deyə jurnalist qeyd edib. A.Həsrət bildirir ki, media əvvəlki dövrlərlə müqayisədə daha geniş imkanlara malikdir. Azərbaycan jurnalistlərinin səsi dünyanın müxtəlif ölkələrində eşidilir, informasiyalar saniyələr ərzində qlobal auditoriyaya çatdırılır.

"Dövlətin media siyasəti, rəqəmsallaşma prosesləri və texnoloji yeniliklər informasiya mühitinin inkişafına əlavə imkanlar yaradır. Bütün dəyişikliklərə baxmayaraq, medianın əsas missiyası dəyişmir. İstər qəzet, istər televiziya, istərsə də rəqəmsal platforma olsun, əsas məqsəd cəmiyyəti obyektiv və operativ informasiya ilə təmin etməkdir. Forma dəyişə bilər, texnologiyalar yenilənə bilər, amma həqiqəti çatdırmaq, ictimai maraqlara xidmət etmək və maarifləndirmək kimi fundamental prinsiplər həmişə aktuallığını qoruyacaq. Bu baxımdan, mətbuatın klassik dövrünün tədricən başa çatması təbii tarixi proses sayıla bilər. Ancaq Həsən bəy Zərdabinin əsasını qoyduğu müqəddəs missiya - cəmiyyətə xidmət etmək, insanları məlumatlandırmaq və maarifləndirmək missiyası yeni media mühitində də yaşamaqda davam edəcək. Media dəyişir, amma onun cəmiyyət üçün əhəmiyyəti və rolu dəyişmir", - A.Həsrət deyib.

✍ ***Tahirə Qafarlı***

## Müsahib

***Prezident İlham Əliyevin Almaniyaya səfəri kitərəfli münasibətlər, regional və qlobal geosiyasi proseslər baxımından geniş təhlil olunmaqdadır. Bu səfər hazırkı geosiyasi şəraitdə Azərbaycan-Almaniya münasibətlərində yeni mərhələnin başlanğıcı hesab olunmaqla yanaşı, Avropaya müəyyən mesajlar verdiyini istisna etmir. Müsahibimiz millət vəkili Vüqar Bayramovdur:***



**Vüqar Bayramov,**
Milli Məclisin deputatı

# Almaniya ilə iqtisadi əlaqələr dərinləşəcək

***- Prezidentİlham Əliyevin Almaniyaya səfərini necə qiymətləndirirsiniz?***

- Azərbaycanla Almaniya arasında strateji tərəfdaşlıq mövcuddur və bu, eyni zamanda iki ölkə arasında iqtisadi əlaqələrin genişlənməsində də özünü göstərir. Təbii ki, cənab Prezidentin Almaniyaya səfəri iki ölkə arasında münasibətlərin inkişafında yeni bir səhifə açacaq. Keçirilən görüşlər və müzakirə olunan məsələlər də bir daha təsdiq edir ki, bu səfər Azərbaycan-Almaniya əlaqələrinin daha da dərinləşməsinə və strateji tərəfdaşlığın möhkəmlənməsinə xidmət edəcək. Nəticə etibarilə, bu səfər ölkələr arasında geniş əməkdaşlıq platformasının formalaşdırılması və mövcud potensialdan daha səmərəli istifadə olunması baxımından mühüm əhəmiyyət daşıyır.

***- Son illər Azərbaycan-Avropa İttifaqı münasibətlərində müşahidə olunan mürəkkəblik fonunda Almaniya ilə siyasi dialoqun intensivləşməsi hansı strateji mesajları verir və Berlinlə münasibətlərin inkişafı Azərbaycanın Avropa siyasətinə necə təsir göstərə bilər?***

- Almaniya Avropa İttifaqının aparıcı dövlətlərindən biridir. Eyni zamanda, 5 trilyon dollardan artıq nominal ümumi daxili məhsulu ilə dünyanın üçüncü ən böyük iqtisadiyyatına malik ölkədir. Bu baxımdan Azərbaycan-Almaniya münasibətləri həm də Azərbaycan-Avropa İttifaqı münasibətləri kontekstində qiymətləndirilir. Cənab Prezidentin də qeyd etdiyi kimi, Azərbaycanla Avropa İttifaqı arasındakı münasibətlərdə yeni bir mərhələnin şahidi oluruq. Müxtəlif dövrlərdə münasibətlər fərqli istiqamətlərdə inkişaf etsə də, xüsusilə Avropa İttifaqı rəsmilərinin Azərbaycana son səfərləri bir daha təsdiq edir ki, Azərbaycan-Avropa İttifaqı münasibətləri inkişaf edir və dərinləşir.

Azərbaycan Avropa İttifaqının enerji təhlükəsizliyinə mühüm töhfə verən ölkələrdəndir. Son illər Azərbaycanın Avropaya təbii qaz ixracı artıb. Hazırda Avropanın 12 ölkəsi, o cümlədən Avropa İttifaqının 10 üzv dövləti Azərbaycan təbii qazını alır. Ötən müddətdə Azərbaycan Avropaya 60 milyard kubmetrə yaxın təbii qaz ixrac edib və artıq Avropaya təbii qaz ixrac edən ölkələr arasında ilk beşlikdə qərarlaşıb. Bu baxımdan iqtisadi, siyasi və strateji əməkdaşlıq inkişaf etməkdədir.

***- Orta Dəhliz və beynəlxalq nəqliyyat marşrutları fonunda Almaniyanın Azərbaycana marağının artmasının əsas səbəbləri nələrdir?***

- Azərbaycan qonşu ölkələrlə, xüsusilə də Avropa İttifaqı ilə daha sıx münasibətlər qurmaqda maraqlıdır və bu münasibətlər tərəflərin milli maraqları əsasında formalaşdırılır.

Orta Dəhlizin əhəmiyyəti son illər daha da artıb və bu, Avropa İttifaqının da maraq göstərdiyi əsas istiqamətlərdən biridir. Rusiya ilə bağlı sanksiyalar, İran ətrafında baş verən proseslər və bölgədəki geosiyasi dəyişikliklər Orta Dəhlizin strateji əhəmiyyətini artırıb. Bu marşrut vasitəsilə Avropa ilə Asiya arasında yükdaşımalarının həcmi genişlənir. Digər tərəfdən, Azərbaycan beynəlxalq yükdaşımalarında müasir logistika və elektron xidmətlərdən geniş istifadə edir. Bu isə Avropa İttifaqı üçün yeni iqtisadi imkanlar yaradır. Bu baxımdan Orta Dəhlizin inkişafı Almaniyanın da maraqlarına cavab verir. Nəticə etibarilə, Azərbaycan və Türkiyə üzərindən formalaşan marşrut Avropadan Asiyaya, eləcə də şərqdən qərbə yükdaşımalarının daha da genişlənməsinə imkan yaradacaq.

***- Prezident İlham Əliyevin Almaniyada səsləndirdiyi regional təhlükəsizlik və Azərbaycan-Ermənistan sülh prosesi ilə bağlı mesajları necə dəyərləndirirsiniz?***

- Azərbaycan sülh gündəliyinə sadiqdir və Azərbaycan üzərindən Ermənistana daşınan yüklərlə bağlı məhdudiyyətlərin aradan qaldırılması da bunu bir daha təsdiq edir. Bu istiqamətdə ilk addımı məhz Azərbaycan atıb. Ümumilikdə, Azərbaycan sülh gündəliyinə uyğun olaraq öz siyasi iradəsini və mövqeyini nümayiş etdirir. Sözsüz ki, münasibətlərin genişlənməsi və regionda təhlükəsizliyin möhkəmlənməsi Ermənistan Konstitusiyasında ediləcək dəyişikliklərdən də asılı olacaq. Çünki bu, Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanması üçün əsas şərtlərdən biridir. Ermənistanın Azərbaycana və Türkiyəyə qarşı ərazi iddialarını Konstitusiyasından çıxarması olduqca vacibdir. Əks halda, sülh müqaviləsinin imzalanması real görünmür. Sülh müqaviləsi imzalandıqdan sonra isə Cənubi Qafqazda əməkdaşlığın daha da dərinləşəcəyini müşahidə edəcəyik.

*Almaniya ilə münasibətlərin inkişafı Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının daha da dərinləşməsi baxımından mühüm əhəmiyyət daşıyır*

***- Almaniya Cənubi Qafqazda hansı geosiyasi maraqları güdür və Azərbaycan bu siyasətdə hansı mövqedə dayanır?***

- Cənubi Qafqazda təhlükəsizliyin təmin olunması Avropa İttifaqı üçün prioritet məsələlərdəndir. Almaniya da Avropa İttifaqının aparıcı dövlətlərindən biri kimi regionda sülhün və əməkdaşlığın möhkəmlənməsini dəstəkləyən ölkələr sırasındadır. Almaniyanın Cənubi Qafqazda həm siyasi, həm də iqtisadi maraqları mövcuddur. Regionda sülh və əməkdaşlığın bərqərar olması bütövlükdə qlobal sabitliyə töhfə verən dövlətlərin maraqlarına uyğundur. Cənubi Qafqazda sülhün təmin olunması Almaniyanın regiona investisiyalarının artmasına, ticarət dövriyyəsinin genişlənməsinə və qarşılıqlı investisiya qoyuluşlarının çoxalmasına şərait yarada bilər.

***- Bu səfər Almaniyanın Cənubi Qafqaz siyasətində balanslı yanaşmanın güclənəcəyinə dair siqnal kimi qiymətləndirilə bilərmi?***

- Təbii ki, bu səfər Azərbaycan-Almaniya strateji tərəfdaşlığının daha da möhkəmlənməsi baxımından mühüm əhəmiyyət daşıyır. Bu, hər hansı balans siyasəti deyil, birbaşa ikitərəfli münasibətlərin genişləndirilməsinə xidmət edən səfərdir. Çünki yüksək səviyyəli qarşılıqlı səfərlər əvvəlki dövrlərdə də baş tutub. Azərbaycan müstəqil xarici siyasət həyata keçirən dövlətdir və Almaniya başda olmaqla Avropa İttifaqının bir sıra ölkələri ilə münasibətlərini qarşılıqlı maraqlar əsasında inkişaf etdirməkdə davam edir.

***- Səfərin nəticələri yaxın perspektivdə konkret hansı layihələrin və ya razılaşmaların həyata keçirilməsinə təkan verə bilər?***

- Bu səfər xüsusilə qeyri-neft sektorunda əməkdaşlığın genişlənməsi üçün yeni imkanlar yaradır. Müzakirə olunan məsələlər Azərbaycanın Avropa bazarına, xüsusilə də Almaniyaya daha çox qeyri-neft məhsulları ixrac etməsinə şərait yarada bilər. Eyni zamanda alman texnologiyalarının və investisiyalarının qeyri-neft sektoruna cəlb olunması baxımından da səfər mühüm əhəmiyyət daşıyır. Azərbaycan rəqəmsal inkişafı və süni intellekt texnologiyalarını dəstəkləyən ölkələrdəndir və bu istiqamətdə Almaniya ilə əməkdaşlığın daha da güclənəcəyi gözlənilir.

***- Sizcə, bu səfərin ən mühüm siyasi nəticəsi nə olacaq? Bu, yalnız ikitərəfli əlaqələrin inkişafı ilə məhdudlaşacaq, yoxsa Azərbaycanın Avropa ilə münasibətlərində daha geniş dəyişikliklərin başlanğıcı ola bilər?***

- Azərbaycanın Avropa İttifaqı ilə münasibətləri inkişaf edir. Avropa Komissiyasının yüksək səviyyəli rəsmilərinin, o cümlədən Komissiya Prezidentinin Azərbaycana səfəri bunu bir daha təsdiq edir. Azərbaycan Avropa Komissiyası ilə milli maraqlara əsaslanan, qarşılıqlı faydalı və strateji münasibətlər qurmaqda maraqlıdır. Azərbaycan Avropa İttifaqının enerji təhlükəsizliyinə töhfə verən əsas ölkələrdən biri olmaqla yanaşı, Avropa üçün yeni alternativ enerji mənbəyidir. Bu baxımdan Almaniya ilə münasibətlərin inkişafı həm də Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının daha da dərinləşməsi baxımından mühüm əhəmiyyət daşıyır.

✍ ***Tahirə Qafarlı***

# Realda böyük, sənəddə kiçik

## Layihə

***Azərbaycanda mənzil bazarında alıcılarla tikinti şirkətləri arasında ən çox rast gəlinən mübahisələrdən biri mənzilin sahəsi ilə bağlı yaranır. Vətəndaşlar çox vaxt aldıqları mənzilin dövlət reyestrindən çıxarışını əldə etdikdən sonra sənəddə göstərilən sahənin müqavilədə qeyd olunan ölçüdən az olduğunu görür və bunun tikinti şirkətinin müqavilə öhdəliyini pozması kimi qiymətləndirirlər. Bu cür mübahisələrin sayının artması isə Ali Məhkəmənin məsələ ilə bağlı hüquqi mövqeyini açıqlamasını zəruri edib.***



Məhkəmənin açıqladığı mövqe təkcə məhkəmə təcrübəsində vahid yanaşmanın formalaşması baxımından deyil, həm də gələcəkdə mənzil almağı planlaşdıran vətəndaşlar üçün mühüm hüquqi bələdçi hesab olunur. Qərar göstərir ki, mənzilin sahəsi ilə bağlı yaranan hər fərq tikinti şirkətinin məsuliyyəti anlamına gəlmir və belə mübahisələrə yanaşmada bir sıra hüquqi meyarlar nəzərə alınmalıdır.

### Mübahisələrin həllində əsas sənəd müqavilədir

**Ali Məhkəmə bildirir ki, belə hallarda, ilk növbədə, tərəflər arasında bağlanmış alqı-satqı müqaviləsinin şərtləri araşdırılmalıdır. Əgər müqavilədə mənzilin sahəsinin hansı qaydada hesablanacağı - içdən-içə, çöldən-çölə və ya şəhərsalma qanunvericiliyinə uyğun metodla müəyyən ediləcəyi göstərilibsə, mübahisə də məhz həmin şərtlər əsasında həll olunmalıdır.**

Bu baxımdan, məhkəmə vətəndaşlara mühüm tövsiyə verir. Mənzil almaq istəyən şəxslər müqaviləni imzalamazdan əvvəl sahənin hansı üsulla hesablandığını dəqiq öyrənməli, bu məsələni diqqətdən kənarda qoymamalıdırlar. Sonradan yaranan hüquqi mübahisələrdə əsas istinad məhz müqavilədə əks olunan müddəalar olacaq.

Müqavilədə sahənin hesablanma üsulu göstərilməyibsə, bu halda mənzilin faktiki işçi sahəsi əsas götürülməlidir. İşçi sahə dedikdə mənzilin istifadə üçün yararlı olan daxili hissəsi nəzərdə tutulur. Buraya bayır divarları, ara divarlarının müəyyən hissələri, məhəccərlər, sobanın altındakı sahələr və şəhərsalma qanunvericiliyində nəzərdə tutulan azaltma əmsalları daxil edilmir. Belə hallarda yerində ölçmə aparılır. Əgər ölçmənin nəticəsində müəyyən olunarsa ki, mənzilin faktiki işçi sahəsi müqavilədə göstərilən sahəyə uyğundur, tikinti şirkəti öhdəliyini tam yerinə yetirmiş hesab olunur. Əksinə, faktiki işçi sahənin müqavilədə göstərilən ölçüdən az olduğu sübuta yetirilərsə, bu, şirkətin müqavilə öhdəliyini lazımi qaydada yerinə yetirmədiyini göstərir və alıcının kompensasiya tələb etmək hüququ yaranır.

### Çıxarışdakı sahə niyə fərqli olur?

**Ali Məhkəmənin açıqlamasında vətəndaşların ən çox çaşqınlıq yaşadığı məqamlardan biri də izah olunur. Belə ki, daşınmaz əmlakın dövlət reyestrində mənzilin ümumi sahəsi şəhərsalma və tikinti normalarına uyğun hesablanır.**

Bu zaman balkon, terras və digər açıq sahələr tam ölçüdə deyil, xüsusi azaltma əmsalı tətbiq edilməklə ümumi sahəyə daxil edilir. Məsələn, 10 kvadratmetrlik balkon dövlət reyestrində ümumi sahəyə 3 kvadratmetr kimi daxil edilə bilər.

Bunun səbəbi həmin sahələrin yaşayış otaqları ilə eyni funksiyanı daşımaması və istifadəsinin məhdud olmasıdır. Ali Məhkəmə vurğulayır ki, bu əmsal balkonun və ya terrasın ölçüsünü fiziki olaraq azaltmır. Sadəcə, dövlət uçotu zamanı ümumi sahənin hesablanması üçün tətbiq olunan normativ üsuldur. Məhkəmənin hüquqi mövqeyinə görə, çıxarışda göstərilən sahənin müqavilədəki göstəricidən az olması avtomatik olaraq tikinti şirkətinin müqaviləni pozması anlamına gəlmir.

Əgər tərəflər müqavilədə sahənin şəhərsalma qanunvericiliyinə uyğun hesablanacağını ayrıca razılaşdırmayıblarsa, çıxarışda yaranan fərq yalnız müxtəlif hesablanma metodlarından irəli gəlir. Bu halda mənzilin faktiki sahəsi dəyişmir, sadəcə dövlət reyestrində tətbiq edilən metodologiya fərqli olur. Məhkəmə hesab edir ki, əks yanaşma müqavilə azadlığı prinsipinə zidd olardı.

### Sonradan aparılan dəyişikliklər bu cür qiymətləndiriləcək

**Ali Məhkəmə mənzildə sonradan aparılan yenidənqurma işləri ilə bağlı məsələyə də aydınlıq gətirib. Qeyd olunur ki, əgər alıcı mənzili qəbul etdikdən sonra daxildə yenidən planlaşdırma aparıb, əlavə divarlar çəkib və ya mövcud planı dəyişdiribsə, nəticədə yaranan sahə fərqinə görə tikinti şirkəti məsuliyyət daşımır.**

Belə hallarda öhdəliyin düzgün yerinə yetirilib-yetirilmədiyi mənzilin təhvil verildiyi tarixdəki vəziyyət və ilkin layihə sənədləri əsasında qiymətləndiriləcək. Ali Məhkəmənin mövqeyinə əsasən, faktiki sahə çatışmazlığı müəyyən edilərsə, alıcı çatışmayan kvadratmetrlərin dəyərinin ödənilməsini tələb edə bilər. Üstəlik, kompensasiyanın məbləği hesablanarkən mənzilin alındığı tarix deyil, mübahisəyə baxıldığı dövrdə bazarda formalaşmış qiymətlər əsas götürülə bilər. Bu yanaşma əmlak bazarında qiymət artımının olduğu şəraitdə alıcının hüquqlarının daha effektiv müdafiəsinə imkan yaradır.

### İddia müddəti nə vaxt başlayır?

**Ali Məhkəmə bu kateqoriyadan olan mübahisələr üzrə iddia müddətinə də aydınlıq gətirib. Məhkəmənin mövqeyinə görə, sahə çatışmazlığı ilə bağlı tələblər üzrə 5 illik iddia müddəti tətbiq edilir və bu müddət mənzilin alıcıya faktiki təhvil verildiyi gündən hesablanır.**

Məhkəmə hesab edir ki, vətəndaş mənzili qəbul edərkən onun ölçülərini yoxlamaq imkanına malikdir və bu məsələdə lazımi diqqət göstərməlidir. Buna görə də yalnız çıxarış əldə etdikdən sonra sahə fərqindən xəbər tutduğunu əsas gətirmək hər zaman hüquqi baxımdan kifayət etmir.

Əgər beş illik müddət keçibsə və tikinti şirkəti iddia müddətinin tətbiqini tələb edərsə, hətta faktiki sahə çatışmazlığı müəyyən olunsa belə, məhkəmə iddianı təmin etməyə bilər. Ali Məhkəmənin açıqladığı hüquqi mövqe göstərir ki, mənzil alarkən əsas diqqət yalnız qiymətə və yerləşməyə deyil, müqavilənin məzmununa yönəldilməlidir.

Xüsusilə mənzilin sahəsinin hansı metodla hesablanacağı, balkon və terrasların necə nəzərə alınacağı, eləcə də tərəflərin razılaşdığı digər şərtlər gələcəkdə yarana biləcək mübahisələrin həllində həlledici rol oynayacaq. Ekspertlərin fikrincə, bu qərar gələcəkdə məhkəmələrdə oxşar işlər üzrə vahid hüquqi təcrübənin formalaşmasına, həm alıcıların hüquqlarının daha səmərəli qorunmasına, həm də tikinti şirkətləri ilə vətəndaşlar arasında əsassız mübahisələrin azalmasına xidmət edəcək. Eyni zamanda, qərar mənzil almağı planlaşdıran hər bir şəxsə mühüm mesaj verir: müqaviləni imzalamazdan əvvəl bütün şərtləri diqqətlə oxumaq və zərurət yaranarsa hüquqi məsləhət almaq sonradan yarana biləcək problemlərin qarşısını ala bilər. "Mənzil alarkən sahənin necə hesablandığını dəqiqləşdirin"

**■ Əmlak və tikinti məsələləri üzrə ekspert Elnur Azadovun sözlərinə görə, mənzil sahəsi ilə bağlı yaranan problemlərin əsas səbəbi bəzi tikinti şirkətlərinin satış zamanı sahəni qanunvericiliyin tələblərinə uyğun hesablamamasıdır.**

Onun sözlərinə görə, praktikada elə hallarla rastlaşılır ki, tikinti şirkətləri mənzilin sahəsini xarici ölçülər əsasında hesablayaraq müqavilədə daha böyük rəqəm göstərirlər. Halbuki bu yanaşma şəhərsalma və tikinti qanunvericiliyinin tələblərinə uyğun deyil. Nəticədə vətəndaş çıxarış aldıqda sənəddə qeyd olunan sahə ilə müqavilədə göstərilən sahə arasında 15-20 faizə qədər fərq yaranır və bu da mübahisələrə səbəb olur.

Ekspert bildirir ki, vətəndaşlar əksər hallarda mənzili bina hələ tikinti mərhələsində olarkən aldıqları üçün onun faktiki sahəsini ölçmək imkanına malik olmurlar. Buna görə də onlar tikinti şirkətinin təqdim etdiyi məlumatlara və müqavilədə göstərilən göstəricilərə etibar edirlər. Sonradan daşınmaz əmlak üzərində mülkiyyət hüququ rəsmiləşdirildikdən və çıxarış əldə edildikdən sonra sahə fərqi üzə çıxır və tərəflər arasında hüquqi mübahisələr başlayır.

E.Azadov hesab edir ki, belə hallarda vətəndaş ilk növbədə, tikinti şirkətinə rəsmi qaydada müraciət etməli, sahə fərqinin araşdırılmasını və çatışmayan hissənin dəyərinin ödənilməsini tələb etməlidir. Əgər şirkət bu tələbi könüllü şəkildə təmin etməzsə, alıcının məhkəməyə müraciət etmək hüququ var. Ekspertin fikrincə, Ali Məhkəmənin son hüquqi mövqeyi bu istiqamətdə mövcud olan qeyri-müəyyənliyə aydınlıq gətirəcək və gələcəkdə oxşar mübahisələrin həllində vahid məhkəmə təcrübəsinin formalaşmasına kömək edəcək.

✍ **Sevinc**

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi
Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu

*"Mənzil sahəsi ilə bağlı yaranan problemlərin əsas səbəbi bəzi tikinti şirkətlərinin satış zamanı sahəni qanunvericiliyin tələblərinə uyğun hesablamamasıdır*

## XƏBƏRİNİZ OLSUN...



■ 2026-cı ilin ilk 6 ayı üzrə Azərbaycan Dəmir Yolları (ADY) üzrə gündəlik orta sərnişin sayı 30 min nəfərə yüksəlib. Bu göstərici əvvəlki dövrlə müqayisədə 17% artım deməkdir. "BakuBus" avtobusları ilə daşınan gündəlik orta sərnişin sayı isə 24% artaraq 643 min nəfərə çatıb.

■ 2026-cı ilin ilk 6 ayı üzrə Azərbaycan Hava Yolları (AZAL) üzrə ümumi sərnişin sayı 1 milyon 945 min nəfər olub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 5% çoxdur. Tranzit sərnişin daşımalarının sayı isə 277 min nəfərə yüksələrək 41% artım təşkil edib.

■ 2026-cı ilin ilk 6 ayı üzrə ADY üzrə tranzit yükdaşımaların ümumi həcmi 3,625 min tona çataraq əvvəlki illə müqayisədə 9%, Şərq - Qərb (Orta Dəhliz) vasitəsilə tranzit yükdaşımaların həcmi isə 1 milyon 958 min tona çataraq əvvəlki illə müqayisədə 12% artım göstərib.



■ 2026-cı ilin ilk 6 ayı üzrə Bakı Beynəlxalq Dəniz Ticarət Limanı vasitəsilə konteyner yükaşırmalarının həcmi isə 15% artaraq 61 min TEU təşkil edib. Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi (ASCO) üzrə quru yük gəmiləri ilə daşımaların həcmi 894 min ton (34% artım), tanker daşımalarının həcmi 1 milyon 709 min ton (25% azalma) olub.

■ Yanvar-iyun aylarında Bakı-Tbilisi-Ceyhan (BTC) neft ixrac kəməri ilə nəql olunan neft 8,8 faiz azalaraq 12 milyon 702,3 min ton təşkil edib. Nəqletmənin 76,9 faizi Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri ilə həyata keçirilib. Dövr ərzində BTC kəməri ilə nəql edilmiş neftin 82,3 faizini (10 milyon 453,9 min ton) Azərbaycanda hasil edilən neft, 17,7 faizini (2248,4 min ton) isə Türkmənistan və Qazaxıstandan daxil olan neft təşkil edib.

■ Bu ilin yanvar-iyun aylarında Azərbaycanda 354,9 min ton neft koksu, neft bitumu və neft məhsullarının digər qalıqları istehsal edilib. Bu göstərici 2025-ci ilin eyni dövrü ilə müqayisədə 44,6 min ton və ya 11,2 faiz azdır. Bu il iyulun 1-i vəziyyətinə ölkədə hazır sözügedən məhsulların ehtiyatı 61,2 min ton təşkil edib.



■ Yanvar-iyun aylarında Azərbaycandakı magistral təbii qaz kəmərləri ilə 20 milyard 792,2 milyon kubmetr təbii qaz nəql edilib və əvvəlki ilin eyni aylarına nisbətən 2,6 faiz artım müşahidə olunub. Hesabat dövrü ərzində qaz nəqlinin 55 faizi (11 milyard 442,2 milyon kubmetr) Bakı-Tbilisi-Ərzurum Cənubi Qafqaz boru kəməri vasitəsilə həyata keçirilib.

■ Azərbaycanda bu ilin ilk beş ayında nikah və boşanmaların sayı azalıb. Cari ilin yanvar-may aylarında 15 107 nikaha daxilolma və 8 087 boşanma halı qeydə alınıb. 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1 000 nəfərinə düşən nikahların sayı 4,7-dən 3,6-ya, boşanmaların sayı isə 2-dən 1,9-a enib.

# Orta Dəhliz strateji əhəmiyyət daşıyır

***Orta Dəhliz Avropa üçün yalnız nəqliyyat və logistika marşrutu deyil, eyni zamanda iqtisadi təhlükəsizliyi gücləndirən, təchizat zəncirlərini şaxələndirən və Avropa İttifaqının geosiyasi maraqlarını dəstəkləyən strateji alət kimi qiymətləndirilməlidir.***

Bunu Alman Marşall Fondunun (German Marshall Fund - GMF) Brüssel ofisinin qeyri-rezident baş elmi işçisi Kadri Taştan "Rethinking the Middle Corridor: The Route Is a Strategic Instrument for Europe's Wider Neighborhood" ("Orta Dəhlizə yenidən baxış: Marşrut Avropanın daha geniş qonşuluğu üçün strateji alətdir") adlı məqaləsində yazıb.

Onun sözlərinə görə, Rusiyanın Ukraynaya qarşı müharibəsi, Qırmızı dənizdə yaranan təhlükəsizlik problemləri, iqtisadi təhlükəsizliklə bağlı narahatlıqlar və təchizat zəncirlərinin dayanıqlığının artırılması zərurəti Avrasiya üzrə alternativ nəqliyyat marşrutlarına marağı əhəmiyyətli dərəcədə artırıb. "Hökumətlər səmərəliliklə yanaşı dayanıqlığa da üstünlük verdikcə, bağlantılar artıq yalnız kommersiya layihəsi kimi deyil, asılılıqları azaltmağa, iqtisadi təhlükəsizliyi gücləndirməyə və daha geniş geosiyasi məqsədləri dəstəkləməyə xidmət edən strateji aktiv kimi qiymətləndirilir", - deyə müəllif vurğulayıb.

Kadri Taştan hesab edir ki, Avropa İttifaqı Orta Dəhlizə ilk növbədə, infrastruktur layihəsi kimi deyil, eyni vaxtda bir neçə strateji məqsədə xidmət edən geoiqtisadi alət kimi yanaşmalıdır. Onun fikrincə, bu marşrut Aİ-nin "Global Gateway" strategiyasını, kritik xammala çıxış imkanlarını, iqtisadi təhlükəsizlik gündəliyini və Mərkəzi Asiya ilə Cənubi Qafqaz ölkələri ilə əməkdaşlığını gücləndirə bilər.

Məqalədə qeyd olunur ki, Orta Dəhlizin əhəmiyyəti təkcə daşınan yüklərin həcmi ilə ölçülməməlidir.

"Orta Dəhliz mövcud marşrutları əvəz etmək üçün deyil, Avropa və region ölkələri üçün daha çox strateji seçim yaratmaq, əlaqəliliyi və iqtisadi dayanıqlığı artırmaq üçün qiymətləndirilməlidir", - deyə müəllif yazıb. Kadri Taştanın fikrincə, Mərkəzi Asiya və Cənubi Qafqaz ölkələri üçün dəhliz yalnız tranzit gəlirləri deyil, həm də xarici iqtisadi tərəfdaşların şaxələndirilməsi, investisiyaların cəlbi, qlobal dəyər zəncirlərinə inteqrasiya və iqtisadi suverenliyin möhkəmləndirilməsi baxımından mühüm imkanlar yaradır. Müəllif Türkiyənin də Orta Dəhlizi regional logistika, istehsal, enerji və nəqliyyat mərkəzinə çevrilmək strategiyasının əsas elementlərindən biri kimi qiymətləndirdiyini qeyd edib. Onun sözlərinə görə, Ankara bu marşrutu Fars körfəzi ilə Avropanı birləşdirəcək "Development Road" layihəsi ilə birlikdə regional əlaqəliliyin inkişafı baxımından strateji təşəbbüs hesab edir. Məqalədə bildirilir ki, Avropa İttifaqı ilə Türkiyə arasında əməkdaşlığın gücləndirilməsi Orta Dəhlizin uğurlu inkişafı üçün əsas şərtlərdən biridir. "Orta Dəhliz Avropa İttifaqı və Türkiyə arasında iqtisadi




təhlükəsizlik, təchizat zəncirlərinin şaxələndirilməsi, enerji əməkdaşlığı və kritik xammal sahəsində ortaq maraqlar əsasında daha praqmatik tərəfdaşlığın formalaşdırılması üçün real platforma yaradır", - deyə Kadri Taştan vurğulayıb.

Bununla yanaşı, müəllif qeyd edir ki, dəhlizin tam potensialının reallaşdırılması üçün Xəzər dənizində nəqliyyat imkanlarının genişləndirilməsi, liman və dəmir yolu infrastrukturunun inkişaf etdirilməsi, gömrük prosedurlarının uyğunlaşdırılması, rəqəmsallaşmanın sürətləndirilməsi və iştirakçı ölkələr arasında koordinasiyanın gücləndirilməsi vacibdir.

"Geosiyasi parçalanma və təchizat zəncirlərində təkrarlanan pozuntular fonunda Orta Dəhlizin əsas üstünlüyü hər hansı bir marşrutdan və ya coğrafiyadan asılılığı azaltması, Avrasiyada daha dayanıqlı və şaxələndirilmiş əlaqəlilik sisteminin formalaşmasına töhfə verməsidir", - deyə məqalədə qeyd olunub.

# Moskvada Azərbaycan-Rusiya siyasi dialoqu

***Azərbaycan xarici işlər naziri Ceyhun Bayramovun Moskva səfəri və həmkarı Sergey Lavrovla keçirdiyi görüş Azərbaycan-Rusiya münasibətlərinin mövcud durumunu yenidən gündəmə gətirib. Qeyd edək ki, Moskvanın rəsmi açıqlamalarında münasibətlərin potensialının tam reallaşdırılması və əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı mesajlar verilib. Eləcə də Sergey Lavrov görüş zamanı Rusiya və Azərbaycanın ikitərəfli münasibətlərin bütün imkanlarından istifadə etməyə doğru irəlilədiyini bildirib. Bu səfəri Bakı ilə Moskva arasında bütün problemlərin tam həll olunması kimi qiymətləndirmək olarmı?***



## Gündəm

■ **Siyasi ekspert Azər Hüseynov bildirir ki, xarici işlər naziri Ceyhun Bayramovun məlum səfərini müxtəlif aspektlərdən dəyərləndirmək mümkündür: "Azərbaycan-Rusiya münasibətlərində zaman-zaman müəyyən gərginliklər və fikir ayrılıqları yaranır.**

Lakin bu cür gərginliklər dövlətlər arasında diplomatik dialoqun dayanması anlamına gəlmir. Əksinə, beynəlxalq münasibətlər təcrübəsi göstərir ki, məhz belə dövrlərdə diplomatik kanalların açıq saxlanılması daha böyük əhəmiyyət daşıyır. Bu vasitə ilə həm mövcud problemlərin idarə olunması, həm də qarşılıqlı maraq doğuran məsələlər üzrə əməkdaşlığın gələcək perspektivləri müzakirə edilir.

Xüsusilə Ukrayna ilə müharibənin yaratdığı yeni geosiyasi şərait fonunda Rusiya Cənubi Qafqazda mövqelərini qorumağa çalışır və bu baxımdan, Azərbaycanla münasibətlərin inkişafında maraqlı görünür. Azərbaycan da öz növbəsində Rusiya ilə uzun quru sərhədinə malikdir və Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin əsas iştirakçılarından biri kimi bu marşrutun iqtisadi və tranzit imkanlarının genişlənməsində maraqlıdır. Bu amillər iki ölkə arasında dialoqun davam etdirilməsini zəruri edən əsas faktorlardandır". Onun sözlərinə görə, Azərbaycan xarici siyasətində milli maraqları əsas meyar kimi saxlamalı, münasibətlərin məhz bu çərçivədə qurulmasına xüsusi diqqət yetirməlidir. Eyni zamanda, Ermənistanda Rusiyaya yaxın siyasi qüvvələrin və revanşist meyllərin güclənməsinin regional təhlükəsizliyə mənfi təsir göstərə biləcəyi ehtimalı da nəzərdən qaçırılmamalıdır.

"Bu səbəbdən, Bakı həm Moskva ilə praqmatik əməkdaşlığı davam etdirməli, həm də regionda yaranan yeni siyasi prosesləri diqqətlə izləyərək öz strateji maraqlarını qorumağa yönəlmiş balanslı siyasət yürütməlidir. Belə yanaşma həm regional sabitliyin qorunmasına, həm də Azərbaycanın uzunmüddətli milli maraqlarının təmin edilməsinə xidmət edəcəkdir"-deyə, A.Hüseynov əlavə edib.

■ **"Yeni Xətt" Siyasi Tədqiqatlar Mərkəzinin rəhbəri Ramil Hüseynov hesab edir ki, Azərbaycan-Rusiya münasibətlərində indiyədək yaşanan gərginliklərin əsas təşəbbüskarı məhz Rusiya olub. Onun sözlərinə görə, Azərbaycan hər zaman milli maraqlarını təmin etmək üçün zəruri diplomatik və siyasi addımlar atıb.**

Mərkəz rəhbəri bildirir ki, bunun ən bariz nümunəsi Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı tarixi Zəfərdir. Həmin qələbədən sonra təkcə Rusiyadan deyil, bir sıra digər ölkələrdən də Azərbaycana qarşı müxtəlif təzyiq cəhdləri müşahidə olunmağa başlayıb. Azərbaycanın uzaqgörən diplomatiyası və praqmatik siyasi yanaşması sayəsində bu təzyiqlərin qarşısı müxtəlif mərhələlərdə alınıb. Bununla belə, Rusiya hələ də Azərbaycana təsir göstərmək üçün yeni təzyiq mexanizmləri axtarmaqdadır. R. Hüseynovun fikrincə, iki ölkə arasındakı münasibətlərə kölgə salan bir sıra addımların həm sifarişçisi, həm də ideya müəllifi Rusiyadır. O qeyd edir ki, bu yanaşma yeni deyil və əvvəlki dövrlərdə də, xüsusilə "beşinci kolon" fəaliyyəti ilə bağlı məsələlərdə özünü açıq şəkildə göstərib. Buna baxmayaraq, Azərbaycan bütün dövrlərdə təmkinli, soyuqqanlı və dövlət maraqlarına əsaslanan siyasət yürüdərək, taktiki və strateji yanaşma nümayiş etdirib, qonşuluq münasibətlərini nəzərə alaraq iki ölkə arasında uzlaşmanın əldə olunmasına çalışıb. Lakin Moskvanın siyasi dairələri bu yanaşmanı lazımi şəkildə qiymətləndirməyiblər.

Ekspert hesab edir ki, hazırkı vəziyyət münasibətlərdə növbəti sınaq mərhələsidir. Onun sözlərinə görə, ümid etmək olar ki, bu mərhələdə qırmızı xətlərə yaxınlaşan addımların qarşısı alınacaq. Həyata keçirilən səfər mahiyyət etibarilə siyasi dialoqun davam etdirilməsinə və iki ölkə arasında münasibətlərin inkişafına xidmət edir.

R.Hüseynov bildirir ki, bu diplomatik təması münasibətlərdə müsbət siqnal kimi qiymətləndirmək mümkündür. Bunun bütün problemlərin həll olunduğu və bundan sonra münasibətlərdə gərginliyin yaşanmayacağı anlamına gəlmədiyini vurğulayıb. Onun sözlərinə görə, hadisələrin sonrakı inkişafını zaman göstərəcək və yalnız münasibətlərin normallaşacağına ümid etmək olar.

R.Hüseynov qeyd edir ki, bəzi dövlətlər hələ də imperiya təfəkküründən irəli gələn siyasi yanaşmadan əl çəkməyərək təzyiq və hədə siyasəti ilə öz maraqlarını təmin etməyə çalışırlar. Lakin Azərbaycan artıq əvvəlki Azərbaycan deyil və bu cür yanaşmalar nəticə verməyəcək.

"Azərbaycan yalnız beynəlxalq hüquq normalarına və mehriban qonşuluq prinsiplərinə əsaslanan münasibətlərin tərəfdarıdır. Rəsmi Bakı hər zaman milli maraqlarını rəhbər tutaraq qarşılıqlı hörmət və bərabərhüquqlu əməkdaşlıq xəttini seçib", - deyə o vurğulayır. Ekspertin sözlərinə görə, iqtisadi əməkdaşlıq da tərəflər arasında əsas müzakirə mövzularından biridir. Ticarət, nəqliyyat və enerji layihələrinin davam etdirilməsi hər iki ölkənin maraqlarına cavab verir. Bununla yanaşı, Rusiya bazarının əvvəlki imkanlara malik olmadığını qeyd edən politoloq bildirib ki, müharibə və iqtisadi böhran bu ölkənin iqtisadi potensialına ciddi təsir göstərib. Bu səbəbdən regional təhlükəsizlik məsələləri ilə yanaşı iqtisadi əməkdaşlığın gələcəyi də danışıqların əsas mövzularındandır.

*"*

*Ukrayna ilə müharibənin yaratdığı yeni geosiyasi şərait fonunda Rusiya Cənubi Qafqazda mövqelərini qorumağa çalışır*

*Rusiya hələ də Azərbaycana təsir göstərmək üçün yeni təzyiq mexanizmləri axtarmaqdadır*

*Moskva teması daha çox mövcud problemlərin nizamlanmasına hesablanıb*

*Azərbaycan Rusiyanın təsir dairəsindən çıxıb, milli maraqlarına uyğun siyasət yürüdür*

R. Hüseynov hesab edir ki, ictimaiyyətə açıqlanan məsələlərlə yanaşı, pərdə arxasında müzakirə olunan mühüm mövzular da var və onların nəticələri gələcəkdə məlum olacaq. Onun fikrincə, Azərbaycan-Rusiya münasibətlərinin gələcəyi əldə olunan razılaşmaların necə icra ediləcəyindən və qarşılıqlı etimadın hansı səviyyədə bərpa olunacağından asılıdır. Hazırkı səfər münasibətlərin inkişafına ümid yaratsa da, onun uzunmüddətli nəticələri barədə indidən qəti fikir söyləmək mümkün deyil.

■ **Siyasi şərhçi Əli Mustafa hesab edir ki, Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun Moskvaya səfəri daha çox iki ölkə arasında mövcud problemlərin nizamlanmasına yönəlmiş diplomatik təmas kimi qiymətləndirilməlidir.** Onun sözlərinə görə, hazırkı mərhələdə Moskva ilə Bakı arasında tamamilə yeni münasibətlər mərhələsinin başlandığını söyləmək üçün əsas yoxdur.

"Düşünmürəm ki, bu səfər Rusiya-Azərbaycan münasibətlərində tamamilə yeni mərhələnin formalaşmasının başlanğıcıdır. Təbii ki, il ərzində müxtəlif məsləhətləşmələr aparılıb, texniki və praktiki məsələlər razılaşdırılıb. Ancaq ümumi mənzərə göstərir ki, Azərbaycan-Rusiya münasibətləri hazırda qismən sabit, qismən isə mürəkkəb olaraq qalır. Hələ də tam həllini tapmayan və qarşılıqlı anlaşma tələb edən məsələlər mövcuddur", - siyasi şərhçi bildirir. Ə.Mustafanın fikrincə, hazırda Rusiyanın üzləşdiyi geosiyasi problemlər daha ciddidir. Bununla belə, Moskva postsovet məkanını, o cümlədən Azərbaycanı diqqət mərkəzində saxlamaqda davam edir.

"Bu baxımdan, hesab edirəm, Moskva səfərinə daha çox mövcud münasibətlər sisteminin nizamlanmasına xidmət edən diplomatik təmas kimi yanaşmaq lazımdır. Rusiya-Azərbaycan münasibətlərində baş verən bütün proseslər ictimaiyyət üçün tam şəffaf deyil. Hansı məsələlərin həll olunduğunu, hansılarının isə açıq qaldığını dəqiq bilmirik", - deyə o qeyd edib. Ekspert bildirir ki, son dövrlərdə baş verən hadisələr, o cümlədən təyyarə insidenti və Rusiyada yaşayan azərbaycanlılara, eləcə də Azərbaycan diasporuna qarşı müşahidə olunan təzyiqlər münasibətlərə müəyyən təsir göstərib.

"Bu hadisələrdən sonra münasibətlər əvvəlki kimi deyil, amma eyni zamanda demək olmaz ki, hazırda tərəflər arasında kəskin gərginlik mövcuddur. Görünən odur ki, müəyyən məsələlər mərhələli şəkildə tənzimlənir. Hesab edirəm ki, bu cür təmaslar və yüksək səviyyəli görüşlər mövcud gərginliyin və anlaşılmazlıqların aradan qaldırılmasına müəyyən töhfə verir. Bütün hallarda dialoq və qarşılıqlı təmaslar faydalıdır", - Əli Mustafa vurğulayır.

Siyasi şərhçi əlavə edir ki, iqtisadi əməkdaşlıq da Moskva danışıqlarının əsas istiqamətlərindən biridir və bu sahədə əməkdaşlığın qorunub saxlanılması hər iki ölkənin maraqlarına cavab verir.

Onun sözlərinə görə, Azərbaycan üçün təkcə Rusiya ilə münasibətlər deyil, digər tərəfdaşlarla iqtisadi, ticarət və siyasi əlaqələrin qorunması da mühüm əhəmiyyət daşıyır.

Ə.Mustafa bildirir ki, Azərbaycan-Ermənistan münasibətləri və sərhədlərin delimitasiyası məsələsində Rusiyanın əvvəlki təsir imkanları artıq xeyli zəifləyib. "Xüsusilə Azərbaycan-Ermənistan sərhədləri ilə bağlı məsələlərdə hesab etmirəm ki, Rusiyanın əvvəlki kimi həlledici rolu qalıb. Hazırda tərəflər birbaşa dialoq yolu ilə problemlərin həllinə üstünlük verirlər. Bununla belə, Cənubi Qafqaz Rusiyanın maraq dairəsində olan regiondur və Moskva, təbii ki, Ermənistan-Azərbaycan münasibətlərində müəyyən rol oynamağa çalışacaq. Amma region ölkələri artıq bu məsələləri daha çox özləri, kənar müdaxilə olmadan həll etməkdə maraqlıdırlar", - deyə vurğulayır.

■ **Politoloq Məhəmməd Əsədullazadə hesab edir ki, Azərbaycan-Rusiya münasibətləri hazırda yeni mərhələyə daxil olub. Onun sözlərinə görə, Cənubi Qafqazda formalaşan yeni geosiyasi reallıqlar və Azərbaycanın müstəqil xarici siyasət kursu Moskvanı narahat edən əsas amillərdəndir.**

Politoloq bildirir ki, Azərbaycan artıq Rusiyanın təsir dairəsindən çıxıb və milli maraqlarına uyğun müstəqil siyasət həyata keçirir. Bununla belə, rəsmi Bakı Moskva ilə münasibətlərdə gərginliyin yaranmasında maraqlı deyil. Bu baxımdan Moskvada keçirilən görüşlər də mövcud problemlərin diplomatik yollarla həllinə xidmət edir.

"Azərbaycan Rusiyaya çatdırır ki, həyata keçirdiyi siyasət yalnız milli maraqlarına əsaslanır və Moskvanın geosiyasi maraqlarına qarşı hər hansı təhdid yaratmır", - deyə o vurğulayır. M.Əsədullazadənin sözlərinə görə, son dövrlərdə iki ölkə arasında yaranan problemlərin əsas mənbəyi məhz Moskvanın atdığı addımlar olub.

"Rusiya Ukraynada Azərbaycanın iqtisadi maraqlarına zərbə vurub, Azərbaycan şirkətlərinə məxsus obyektlərə, o cümlədən yanacaqdoldurma məntəqələrinə və qaz kompressor stansiyasına hücumlar həyata keçirilib. Eyni zamanda Azərbaycanın Ukrayna ilə münasibətləri, Avropa İttifaqı ilə əməkdaşlığının genişlənməsi, ölkəmizin Avropanın enerji təhlükəsizliyində artan rolu, Orta Dəhlizin inkişafı və nəqliyyat layihələri Moskvanı narahat edən əsas məsələlərdəndir. Buna görə də Azərbaycana qarşı vaxtaşırı təzyiq cəhdləri müşahidə olunur", - deyə politoloq qeyd edir.

"Azərbaycan qonşu dövlət kimi Rusiya ilə normal münasibətlərin qorunmasında maraqlıdır. Nəqliyyat marşrutları və iqtisadi layihələr gələcək münasibətlərdə də mühüm rol oynayacaq. Belə dialoqlar yeni problemlərin qarşısının alınmasına və yaranan fikir ayrılıqlarının siyasi yollarla həllinə imkan verir", - deyə o bildirir.

Politoloq xatırladır ki, son iki il ərzində baş verən bəzi hadisələr fonunda Azərbaycan-Rusiya münasibətlərində gərginlik müşahidə olunub.

"Hazırda münasibətlər müəyyən qədər normallaşsa da, əvvəlki səviyyədə deyil. Bununla belə, hesab edirəm ki, bu görüş Cənubi Qafqazda gedən proseslərin mahiyyətini dəyişməyəcək. Azərbaycan regionda öz siyasi xəttini müstəqil şəkildə müəyyən edir və Ermənistanla münasibətlərini də kənar təsirlər olmadan tənzimləyir", - deyə Əsədullazadə vurğulayır. Ekspert əlavə edir ki, Rusiyanın Ermənistanla münasibətləri və bu ölkədə maraqları Moskvanın öz siyasi seçimidir. "Rusiya Ermənistanla müxtəlif sahələrdə əməkdaşlığını davam etdirə bilər. Lakin Cənubi Qafqazın gələcək təhlükəsizlik arxitekturasını region ölkələri özləri formalaşdırmalıdırlar", - politoloq deyir.

***✍ Tahirə Qafarlı***



# Neft yenidən bahalaşır

***Yaxın Şərqdə gərginliyin yenidən artması qlobal enerji bazarlarını ciddi narahat edir. Dünyada neft ticarətinin ən strateji marşrutlarından biri hesab olunan Hörmüz boğazında yaranan risklər fonunda beynəlxalq maliyyə institutları da qiymət proqnozlarını yenidən nəzərdən keçirirlər. ABŞ-nin aparıcı investisiya banklarından biri olan Goldman Sachs hesab edir ki, əgər Hörmüz boğazı ətrafında böhran davam edərsə və neft daşımalarında ciddi fasilələr yaranarsa, cari ilin son rübündə "Brent" markalı neftin bir barelinin qiyməti 120 dollardan yuxarı qalxa bilər.***

## Energetika

Bununla belə, bank bu ssenarinin əsas proqnoz olmadığını da vurğulayır. Analitiklərin baza ssenarisinə görə, bölgədə gərginliyin azalacağı halda "Brent" markalı neftin qiyməti ilin son rübündə təxminən 80 dollar, 2027-ci ildə isə 75 dollar ətrafında sabitləşə bilər. Bu isə onu göstərir ki, hazırda bazarda qiymətlərin istiqaməti ilk növbədə geosiyasi hadisələrin inkişafından asılıdır.

"Goldman Sachs"ın qiymətləndirməsinə əsasən, Yaxın Şərqdə münaqişələrin genişlənməsi və Körfəz ölkələrindən ixrac olunan neft həcminin müharibədən əvvəlki səviyyənin 45 faizindən də aşağı düşməsi bazarda yeni qiymət artımı dalğası yarada bilər. Xüsusilə Hörmüz boğazında gəmiçilik fəaliyyətinin məhdudlaşması və Qırmızı dənizdə mümkün təchizat problemləri dünya bazarında neftin təklifini azaldaraq qiymətlərə ciddi təzyiq göstərə bilər.

Mütəxəssislər bildirirlər ki, hazırda bazar əvvəlki illərlə müqayisədə daha həssas vəziyyətdədir. Bunun əsas səbəblərindən biri ilin ikinci rübündə qlobal neft ehtiyatlarının azalmasıdır. Ehtiyatların aşağı səviyyədə olması istənilən geosiyasi və ya logistik problemin qiymətlərə daha sürətlə təsir etməsinə səbəb olur.

Digər tərəfdən, neft qiymətlərinin nəzarətsiz şəkildə yüksəlməsinin qarşısını ala biləcək amillər də mövcuddur. Bank analitikləri hesab edirlər ki, Çində neft idxalının zəifləməsi və qlobal iqtisadi artım tempinin əvvəlki dövrlərlə müqayisədə aşağı olması tələbatı məhdudlaşdırır. Bu isə təklifdə yaranan problemlərin qiymətlərə təsirini müəyyən qədər balanslaşdıra bilər. Yəni bazarda hazırda iki fərqli tendensiya müşahidə olunur. Bir tərəfdən geosiyasi risklər qiymətləri yuxarı istiqamətə çəkir, digər tərəfdən isə zəifləyən tələbat artımın sürətini məhdudlaşdırır.

"Goldman Sachs" yalnız xam neft bazarında deyil, dizel yanacağı bazarında da risklərin yüksəldiyini bildirir. Bank geosiyasi risklərdən qorunmaq istəyən investorlar üçün 2026-cı ilin sonundan 2027-ci ilin ilk aylarınadək Avropa dizel bazarında uzunmüddətli mövqelərin daha əlverişli ola biləcəyini qeyd edir.

Analitiklərin fikrincə, dizel bazarında vəziyyət onsuz da gərgindir. Ukraynanın Rusiya neft emalı zavodlarına hücumlarının davam etməsi, qasırğalar, ekstremal isti hava şəraiti və bəzi müəssisələrdə texniki xidmət işlərinin uzanması təchizat üçün əlavə risklər yaradır. Bu amillər dizel yanacağının qiymətlərinə də yüksəldici təsir göstərə bilər. Son həftələr ABŞ və İran arasında qarşıdurmanın yenidən kəskinləşməsi, həmçinin İranın dəstəklədiyi husi qüvvələrinin Səudiyyə Ərəbistanından həyata keçirilən neft daşımalarını bloklamaqla bağlı təhdidləri enerji bazarlarında narahatlığı artırıb. Bu hadisələr investorların risk qiymətləndirməsini dəyişdirərək neft bazarında kəskin qiymət dalğalanmalarına səbəb olub.

Ekspertlərin fikrincə, hazırda bazarın əsas diqqəti Hörmüz boğazında baş verəcək hadisələrə yönəlib. Çünki dünya üzrə dəniz yolu ilə daşınan neftin əhəmiyyətli hissəsi məhz bu marşrutdan keçir. Burada yaranacaq hər hansı uzunmüddətli məhdudiyyət qlobal enerji bazarında yeni qiymət şokuna səbəb ola bilər. Nəticə etibarilə, yaxın aylarda neft bazarının taleyi iqtisadi göstəricilərdən daha çox geosiyasi proseslərin inkişafından asılı olacaq. Əgər bölgədə gərginlik azalsa, qiymətlərin yenidən 75-80 dollar diapazonuna qayıtması mümkündür. Lakin Hörmüz boğazında böhran dərinləşərsə, "Brent" markalı neftin qiymətinin 120 dollar həddini aşması ehtimalı da gündəmdə qalacaq.

*"*

*Hadisələrin inkişafı üç əsas ssenari üzrə davam edə bilər*

■ **Qlobal maliyyə institutlarının risk proqnozları fonunda yerli ekspertlər də vəziyyətin inkişaf ssenarilərini diqqətlə izləyirlər. Neft Araşdırmalar Mərkəzinin rəhbəri İlham Şaban hesab edir ki, hazırkı mərhələdə söhbət yalnız İran-ABŞ qarşıdurmasından deyil, bütövlükdə enerji təchizatı marşrutlarının təhlükə altına düşməsindən gedir.** Ekspert bildirib ki, Hörmüz boğazında hərbi aktivliyin yenidən yüksəlməsi, eyni zamanda, İran və ABŞ arasında qarşılıqlı hərbi əməliyyatların davam etməsi enerji bazarlarında narahatlığı gücləndirib. Bu hadisələrin təsiri ilə "Brent" markalı neftin qiyməti yenidən 90 dollar həddini keçib, Avropada təbii qazın min kubmetrinin qiyməti isə 600 dollardan yuxarı qalxıb.

İ.Şabanın qiymətləndirməsinə görə, hadisələrin inkişafı üç əsas ssenari üzrə davam edə bilər. Birinci və hazırda bazarın daha çox ehtimal verdiyi variant məhdud enerji şokudur. Bu halda tankerlərin sığorta xərcləri artır, yükdaşımaları ləngiyir, neft və mayeləşdirilmiş təbii qazın daşınması bahalaşır. Nəticədə enerji qiymətləri yüksək səviyyədə qalsa da, qlobal bazarda ciddi fiziki qıtlıq yaranmır.

İkinci ssenari isə Hörmüz boğazında böhranın uzunmüddətli xarakter almasıdır. Ekspert qeyd edir ki, dünya üzrə dəniz yolu ilə daşınan neftin təxminən beşdə biri, eləcə də mayeləşdirilmiş təbii qaz ticarətinin mühüm hissəsi məhz bu marşrutdan keçir. Buna görə də boğazda uzunmüddətli məhdudiyyətlər tətbiq olunarsa, təkcə neft deyil, xüsusilə Asiya bazarında qazın qiymətində də ciddi artım müşahidə oluna bilər. Ən riskli variant isə regional müharibənin genişlənməsidir. İ.Şabanın sözlərinə görə, İranın hücumlarının Körfəz ölkələrinin enerji infrastrukturunu və ABŞ-nin müttəfiqlərini də əhatə etməsi artıq yalnız Hörmüz boğazına deyil, bütövlükdə Fars körfəzindən həyata keçirilən enerji ixracına təhlükə yaradacaq. Belə bir vəziyyətdə isə dünya enerji bazarında qiymət artımı daha kəskin xarakter ala bilər. Ekspert Azərbaycanın mümkün təsirlərdən də kənarda qalmayacağını bildirib. Onun sözlərinə görə, qısamüddətli dövrdə neft və qazın bahalaşması ölkənin ixrac gəlirlərinin artmasına şərait yarada bilər. Bununla belə, uzunmüddətli enerji böhranı qlobal iqtisadi artımı zəiflədərək enerji tələbatını azalda bilər. Bu baxımdan yüksək qiymətlər ilk mərhələdə üstünlük yaratsa da, uzun sürən böhran enerji ixrac edən ölkələr üçün də tam müsbət ssenari hesab edilmir.

İ.Şaban əlavə edir ki, hazırkı şəraitdə dünya bazarında neftin qiymətinin yüksəlməsi Azərbaycanın büdcə gəlirlərinə müsbət təsir göstərə bilər. Cari il üçün Azərbaycan neftinin orta ixrac qiymətinin 75-80 dollar səviyyəsində formalaşacağı gözlənilir. Bu isə dövlət büdcəsində əsas götürülən 65 dollarlıq baza qiymətindən yüksəkdir və əlavə gəlirlərin yaranması ehtimalını artırır.

***✍ Sevinc***

# Türkiyə reallığı: Müxalifət bölünür, iqtidar güclənir

***Türkiyədə daxili siyasi tarazlıq dəyişir, ölkədəki bahalaşma fonunda artan sosial narazılıqlar müstəvisində iqtidar partiyaya qarşı sərt mövqe sərgiləyən ana müxalifət partiyası - Cümhuriyyət Xalq Partiyası - CXP parçalanmaqla güc itirməkdədir. Keçmiş partiya lideri Özgür Özəlin yeni partiya qurduğunu elan etməsi ilə Türkiyədə onsuz da parçalanmış müxalifət düşərgəsi daha da kiçilib, zəifləyib və etibarsızlaşıb... Bu gün Türkiyədə geniş əks-səda yaradan parçalanma həm də rütbəli partiya üzvlərinin hansı tərəfdə yer alacağına dair suallar yaradıb.***



## Aktual

Məsələn, CXP-ni Böyük Millət Məclisində təmsil edən 135 millət vəkilindən, eləcə də bələdiyyə sədrlərindən kimlər partiyanı tərk edərək Özəlin ətrafında birləşəcək? Artıq mövqeyini bəyan edənlər var: Özəllə şəxsi münasibətləri baxımından hansı cinahda yer alacağı güman edilənlər də, Atatürkdən qalma partiyaya sədaqətli qalacağını bildirənlər də. Amma birmənalı şəkildə deyək ki, hətta mövqeyi bəlli olanlar sonradan fikirlərini dəyişdirə də bilərlər. Müşahidələrimizə əsaslanaraq, CXP-nin aparıcı simalarından olan Ankara Böyükşəhər Bələdiyyə Başçısı Mənsur Yavaşın elə CXP-də qalmağa meylli olduğu görülür. Çünki onun fikrincə, Özgür Özəl Atatürkün qurduğu partiyanı parçalamağa çalışır.

Bu arada, CXP-nin qalası hesab edilən İzmirdən də mövqe dəyişikliyi xəbəri almaq mümkündür. Məlumatlara əsasən, Mansur Yavaşın həftə ərzində Kamal Kılıçdaroğlu ilə görüşmə ehtimalı ilə yanaşı, İzmir Böyükşəhər Bələdiyyəsinin rəhbəri Cəmil Tuqayın da istefa verdiyi CXP-yə qayıtmağı düşündüyünü iddia edilir.



Mersin Böyükşəhər Bələdiyyə Başçısı Vahap Seçərin də CXP-də qalacağını deyilir. Vəzifəsindən kənarlaşdırılan Adana Böyükşəhər Bələdiyyə Başçısı Zeydan Karalar da çıxışlarından birində CXP-də qalacağını və mübarizənin məhz bu partiya daxilində davam etməli olduğunu bildirib. Bu yerdə qeyd edək ki, Özgür Özəlin sədrliyi ilə keçirilən sonuncu qrup iclasında 83 millət vəkili iştirak edib.

Yerli ekspertlərə görə, həmin iclasda iştirak edənlərin hamısı Özəli dəstəkləyənlər olub və bu qənaətdən yanaşıldıqda bəlli olur ki, sözügedən 83 millət vəkili Özəlin yeni partiyasında təmsil oluna bilər. Bu da öz növbəsində o deməkdir ki, Özəlin yeni partiyası millət vəkili sayına görə TBMM-də AKP-dən sonra ikinci böyük qrupa çevriləcək və ana müxalifət statusu alacaq.

Təxmin edilən 83 millət vəkili CXP-dən ayrılarsa partiayada 52 millət vəkili qalacaq. TBMM-də mövcud üçüncü ən böyük qrup olan DEM Partiyasının 57 millət vəkili oladuğunu nəzərə alsaq, CXP-nin Məclisdə 4-cü qrupa çevriləcəyini deyə bilərik. Amma yenə qeyd edirəm, həmin 83 nəfərin qəti mövqeyinin son anda necə olacağı heç özlərinə də məlum olmadığı üçün Özgür Özəlin indidən sevinməsinə və ya Kılıçdaroğlunun kədərlənməsinə heç bir əsas yoxdur.

Qeyd edək ki, iyunun 1-də məhkəmə qərarı ilə CHP lideri təyin olunan Kamal Kılıçdaroğlu qrup iclasında çıxış edəcəyini açıqladı. Bu zaman parlament binasının qarşısında toplaşan CXP-lilər arasında dava düşdü və Kılıçdaroğlu qrup iclasını partiya qərargahına köçürdü. Maraqlıdır ki, bu gərgin vəziyyətdə cinahlardan heç birinin iclasına qatılmayan 23 millət vəkili tərəfsiz qalacaqlarını elan etdilər.

Onu da bildirək ki, assambleyadakı yerlərin yekun sayı rəsmi istefalar təqdim edildikdən və iştirak ərizələri Assambleya Sədrliyinə çatdırıldıqdan sonra yaxın günlərdə müəyyənləşəcək. Bir maraqlı məqam da var: Özgür Özəl yeni partiya yaradır, amma CXP-nin maddi resurslarından istifadə edərək. Bu gün əlindəki bütün maddi rıçaqlar CXP-yə məxsusdur. İstefa verən və yeni partiya yaradan bir siyasətçi niyə məsələn, CXP-yə məxsus xidməti avtomobili təhvil vermir?

Yeri gəlmişkən, CHP İstanbul millət vəkili, keçmiş jurnalist Barış Yarkadaş, Özəlin yeni partiyanın yol xəritəsini müəyyən etmək üçün keçirilən iclasa gəlişinin şəkillərini paylaşaraq, Özəlin CXP-nin nəzarətində olan Uşak Bələdiyyəsi tərəfindən 170 min avroya alınmış ultra lüks rəsmi avtomobildən düşdüyünü göstərib və şəkillərin altında belə bir şərh yazıb: "Hətta idarə etdiyi avtomobil belə CXP-yə məxsusdur və onu geri qaytarmır. Sadəcə, onu əldən verə bilmir. Radiolar CXP-yə ayrılmışdı; o, onları geri vermir. Avtomobili qaytarmaq əvəzinə, CXP-nin resurslarından istifadə edərək onu bölməyə çalışır. O, gedərkən CXP-nin sosial media hesablarını belə təhvil vermir. Bu, "yeni" partiyadırmı? Bu çürüklükdə nə yenilik var?".

CXP İstanbul vilayət şöbəsinin sədri Gürsel Tekin Özəlin canfəşanlığına yerində rəy verib. Bildirib ki, Özgür Özəlin "Yeni partiya qururuq" ifadəsi sadəcə "müvəqqəti vəziyyətdir. Bu yalançı küləyin necə boş bir fırtına yaradacağını yaxın günlərdə birlikdə görəcəyik". Tekin qeyd edib ki, Cümhuriyyət Xalq Partiyası bundan sonra Türkiyənin əsl partiyası olacaq. "O, öz gündəliyi ilə məşğul olacaq. Bundan sonra vaxtımızı onlara sərf etməyəcəyik. Başladığımız gündən bəri, hər cür yalanlara, hər cür böhtanlara, hər cür təhqirlərə baxmayaraq, sadəcə mövzu Cümhuriyyət Xalq Partiyası olduğu üçün həmişə susduq ki, partiyanın korporativ kimliyinə zərər gəlməsin. Məndə olan əsl xəbərləri heç vaxt ictimaiyyətə açıqlamadım", - Tekin deyib.

Prosesin sonunu gözləyək, bayaq qeyd etdiyimiz kimi, avtomobilsiz sədri, qərargahsız partiyası olan yeni siyasi təşkilatda vaxtilə CXP-nin qüdrətinə sığınıb mandat alan indiki millət vəkilləri özlərinə hansı günü ağlayacaqlar. Avropadan, Amerikadan nə qədər dəstək alsalar da, onlar Türk millətinin üzünə baxa biləcəklərmi? Hər şeyi zaman göstərəcək...

✍ ***Vüsal Tağıbəyli***

# Virtual oyunlar uşağa zərər verirmi?

***Virtual oyunlar uşaqlara həm müsbət, həm də mənfi təsir göstərə bilər. Onlardan düzgün rejimdə istifadə edildikdə zehni inkişafı dəstəkləsə də, həddindən artıq oynanılması fiziki və psixoloji problemlərə səbəb ola bilər. Bunu Səhiyyə Nazirliyinin Psixi Sağlamlıq Mərkəzinin psixoloqu Elnarə Baxışlı deyib.***



O qeyd edib ki, uşaqlar öz daxili emosional rahatlığını, təxəyyülünü və sosial münasibətlərini oyunlar vasitəsilə formalaşdırırlar: "Virtual oyunlar uşaqlarımıza ikili təsir göstərir. Onlar orta səviyyədə və düzgün vaxt bölgüsü ilə oynanıldıqda zehni qabiliyyətlərin inkişafını stimullaşdırır. Lakin həddindən artıq oynanıldıqda fiziki və zehni yorğunluğa səbəb olur. Bundan başqa, bəzi oyunların süjeti düşmənçilik, hüquq pozuntusuna meyillilik və cəzasız qalmaq kimi yanlış üstünlük hisslərinin formalaşmasına təsir göstərə bilər".

Elnarə Baxışlı bildirib ki, uşaqlar gördüklərini oyun zamanı yenidən canlandırmağa, mənimsəməyə və öz kiçik dünyalarında tətbiq etməyə çalışırlar. Bəzən bu səhnələrə öz xəyal obrazlarını da əlavə edirlər. Elə hallar olur ki, uşaq oyun personajı ilə həddindən artıq eyniləşərək real həyatdan uzaqlaşmağa başlayır: "Çünki həmin virtual aləmdə hər şeyin onun nəzarətində olduğu təəssüratı yaranır. Bəzi hallarda uşağın real həyatda nümayiş etdirdiyi davranışlar oyunun davamı təsiri bağışlayır. Aqressiv davranışlar, uzunmüddətli qorxu və təşviş, gecə kabusları və yuxu pozuntuları qorxu məzmunlu oyunların, eləcə də psixikaya mənfi təsir göstərən rəng və səslərin təsiri ilə yarana bilər. Buna görə də oyunlar valideynlə birlikdə seçilməli, virtual oyunların real həyatda müsbət alternativləri yaradılmalıdır". Psixoloq qeyd edib ki, valideynlər oyun seçərkən onların məzmununa və uşağın yaş xüsusiyyətlərinə diqqət yetirməlidirlər. Onun sözlərinə görə, öyrədici və inkişafetdirici oyunlar məntiqi təfəkkürü, diqqəti, dil bacarıqlarını və sayma vərdişlərini inkişaf etdirir. Müxtəlif rəqəmsal tapmacalar və interaktiv oyunlar bu qrupa daxildir.

# Təcili yardıma daxil olan əsassız çağırışların sayı açıqlanıb

**Bu ilin ilk 6 ayı ərzində Respublika Təcili və Təxirəsalınmaz Tibbi Yardım Xidmətinə 38 min 418 əsassız çağırış daxil olub. Bu barədə TƏBİB-in İctimaiyyətlə əlaqələr və kommunikasiya departamentindən məlumat verilib.**



Bildirilib ki, əsassız çağırışlar resurslardan səmərəli istifadə olunmasının qarşısını alır, eləcə də təcili çağırışlara operativ xidmət göstərilməsi prosesinə mənfi təsir edir. Belə hallarda briqadaların əsassız çağırışlara cəlb olunması real təcili vəziyyətlərə çatma müddətinin uzanmasına səbəb ola bilər. Hazırda TƏBİB tərəfindən vətəndaşlar arasında təcili tibbi yardım xidmətindən düzgün istifadə ilə bağlı mütəmadi maarifləndirmə tədbirləri həyata keçirilir. Məqsəd əhalidə bu xidmətin yalnız təcili və təxirəsalınmaz hallarda çağırılmasının vacibliyi barədə məlumatlılığı artırmaqdır.

# Uşaq mallarının təhlükəsizlik göstəricilərinə nəzarət gücləndiriləcək



**Azərbaycan Respublikası Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyində Azərbaycan Tekstil İstehsalçıları və İxracatçıları Assosiasiyasının nümayəndə heyəti ilə görüş keçirilib. Görüşdə ölkənin müxtəlif iri tekstil obyektlərini və istehsal sahələrini təmsil edən sahibkarlıq subyektlərinin nümayəndələri də iştirak ediblər.**

Dövlət Agentliyindən Abildirilib ki, görüşdə qurumun sədri Elnur Bağırov və Azərbaycan Tekstil İstehsalçıları və İxracatçıları Assosiasiyasının icraçı direktoru Fəridə Axundova çıxış ediblər. Çıxışlar zamanı istehlakçıların təhlükəsiz və keyfiyyətli tekstil məhsulları ilə təmin edilməsi, yerli istehsalçıların rəqabət imkanlarının artırılması və tekstil sənayesinin davamlı inkişafının dəstəklənməsi istiqamətində həyata keçirilən tədbirlərin əhəmiyyəti vurğulanıb.

Qeyd edilib ki, istehlakçıların həyat və sağlamlığının qorunması məqsədilə dövriyyəyə buraxılan məhsulların, xüsusilə uşaq mallarının təhlükəsizlik göstəricilərinə nəzarətin gücləndirilməsi mühüm prioritetlərdəndir. Görüş zamanı "Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair 2023-2025-ci illər üçün Dövlət Proqramı" çərçivəsində həyata keçirilən tədbirlər, eləcə də yüngül sənaye və uşaq məhsullarının təhlükəsizliyinə dair hazırlanmış texniki reqlament layihələri barədə məlumat verilib. Müzakirələr zamanı yerli istehsalçıların dövlət satınalmalarında iştirak imkanlarının genişləndirilməsi, sahibkarlıq subyektləri ilə dövlət qurumları arasında əməkdaşlığın gücləndirilməsi, eləcə də tekstil sektorunun inkişafına töhfə verən digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.



**■ Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (Orta Dəhlizin) inkişafı istiqamətində aktual məsələlərdən biri Trans-Xəzər Parom Sisteminin yaradılması layihəsidir. Bu layihə Qazaxıstanın Kurık limanı ilə Bakı limanını birləşdirəcək. Bu sözləri Kurık limanının baş direktoru Erkin Niğmetov deyib.**

O bildirib ki, layihəyə əsasən, hər iki limanda dəmir yolu-parom platformalarının və xüsusi terminalların tikintisi nəzərdə tutulub. Bununla yanaşı, yeni nəsil 6 ədəd paromun alınması da layihəyə daxildir. Hər bir paroma 120 yüklü vaqon yerləşir. Bu layihə yükdaşımanın həcmini artırmaqla yanaşı, yüklərin mənzil başına çatdırılmasını da sürətləndirəcək.




**■ Bu ilin yanvar-iyun aylarında Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə (KOBİA) "Startap" şəhadətnaməsi almaq üçün mikro və kiçik sahibkarlıq subyektlərindən 87 müraciət daxil olub.**

Agentlikdən bildirilib ki, 35 sahibkara "Startap" şəhadətnaməsinin verilməsi barədə qərar qəbul olunub. Şəhadətnamə almış sahibkarların 28-i hüquqi, 7-si fiziki şəxsdir. Onların 26-sı Bakı şəhərində, 9-u isə regionlarda fəaliyyət göstərir. Müvafiq sənədi almış sahibkarların 2-si qadındır. "Startap" şəhadətnaməsi almış layihələr e-ticarət, süni intellekt, fintek, təhsil, ictimai iaşə, nəqliyyat və logistika, elektromobillərin enerji infrastrukturu, sənaye, turizm, biznes proseslərinin rəqəmsallaşdırılması kimi sahələrdə innovativ həlləri əhatə edir.



**■ Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "Əmək və Məşğulluq" altsistemində (ƏMAS) işəgötürənlər üçün ezamiyyə vəsiqələrinin elektron qaydada tərtibinə imkan verən yeni funksionallıq istifadəyə verilib.**

ƏƏSMN-nin rəsmi saytında yer alan məlumata görə, ƏMAS-da yeni yaradılan "Ezamiyyə vəsiqələri" bölməsi vasitəsilə artıq işəgötürənlər əməkdaşların ezamiyyələrinin rəsmiləşdirilməsi prosesini tam elektron qaydada həyata keçirə biləcəklər. "Bu yenilik sənədləşmə prosesini sadələşdirməklə məlumatların vahid elektron mühitdə təhlükəsiz saxlanılmasını təmin edir və proseslərin daha operativ icrasına şərait yaradır", - məlumatda bildirilir.




**■ Hacıqabul Sənaye Parkında Özbəkistan şirkətləri ilə əməkdaşlıq çərçivəsində 11 mindən çox nəqliyyat vasitəsi istehsal olunub. Bu barədə İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyi məlumat yayıb.**

Bildirilib ki, agentliyinin idarəçiliyində olan Hacıqabul Sənaye Parkında Azərbaycan-Özbəkistan sənaye əməkdaşlığı çərçivəsində avtomobil istehsalı uğurla davam etdirilir. Məlumata əsasən, Hacıqabul Sənaye Parkının rezidenti olan "Azərmaş CP" MMC tərəfindən Özbəkistanın "UzAvtoSanoat" SC ilə əməkdaşlıq çərçivəsində bu günədək ümumilikdə 10700-dən çox "Chevrolet" markalı avtomobil istehsal edilib.



**■ Argentinalı futbol ulduzu Lionel Messi milli komandadakı karyerasını başa vurub. Bu barədə idman jurnalisti Ernan Kastilyo məlumat yayıb.**

Onun sözlərinə görə, DÇ-2026-nın final matçı başlamazdan əvvəl hücumçu geyinib-soyunma otağında çox təsirli və emosional bir nitqlə çıxış edib və bu matçının onun Argentina yığmasındakı son oyunu olacağını dilə gətirib. 2026-cı il futbol üzrə dünya çempionatının finalında Argentina millisi əlavə vaxtda İspaniyaya 0:1 hesabı ilə məğlub olub. Hazırda 39 yaşı olan Messi 2023-cü ildən Şimali Amerika Futbol Liqasında (MLS) çıxış edən "İnter Mayami" klubunun formasını geyinir. O, daha əvvəl Fransanın PSJ və İspaniyanın "Barselona" klublarında çıxış edib.



**■ İlin əvvəlindən ölkə əhalisinin sayı 9 287 nəfər və ya 0,1 faiz artaraq 2026-cı il iyun ayının 1-i vəziyyətinə 10 271 638 nəfərə çatıb. 01.07.2026-cı il tarixədək işğaldan azad edilmiş ərazilərə 37 248 nəfər keçmiş məcburi köçkün geri qayıdıb. Bununla da işğaldan azad edilmiş ərazilərdə yaşayan, fəaliyyət göstərən və təhsil alan şəxslərin ümumi sayı 90 316 nəfər təşkil edib.**

Ölkə əhalisinin 54,3 faizini şəhər, 45,7 faizini kənd sakinləri, 49,8 faizini kişilər, 50,2 faizini isə qadınlar təşkil edir. Bu ilin yanvar-may ayları ərzində Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 34 056 doğulan körpə qeydə alınıb və 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici 9,2-dən 8,0-a düşüb.

# Özəl bağçalarda qiymətlər artacaq?

***Azərbaycanda məktəbəqədər təhsil sahəsində tətbiq edilən yeni maliyyələşdirmə mexanizmi özəl uşaq bağçaları bazarında mühüm dəyişikliklər vəd edir. Yeni qaydalara əsasən, valideyn-dövlət-özəl əməkdaşlığı modeli çərçivəsində dövlət özəl məktəbəqədər təhsil müəssisələrində xidmət haqqının 70 faizini maliyyələşdirəcək. Bu dəstək Bakı şəhərində maksimum 350 manat, regionlarda isə 250 manat həcmində olacaq.***



Təhsil

Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin direktor müavini Vəfa Yaqublunun sözlərinə görə, məqsəd dövlət bağçalarında növbələrin azalması, daha çox uşağın məktəbəqədər təhsilə cəlb edilməsi və özəl sektorun inkişafına əlavə stimul yaratmaqdır.

## Qiymətlər neçədən başlayır?

**Hazırda Azərbaycanda özəl uşaq bağçalarının aylıq ödənişləri təqdim olunan xidmətlərdən, yerləşdiyi ərazidən və tədris proqramından asılı olaraq ciddi fərqlənir.**

Bakıda fəaliyyət göstərən əksər özəl bağçalarda aylıq ödənişlər, əsasən, 600-1000 manat arasında dəyişir. Beynəlxalq proqramlar tətbiq edən və xarici dil, fərdi inkişaf, əlavə dərnəklər təklif edən müəssisələrdə isə bu məbləğ 1 200-2 000 manat, bəzi hallarda daha yüksək olur. Regionlarda isə qiymətlər, adətən, 250-600 manat intervalında dəyişir. Yeni qərardan sonra əsas müzakirə olunan məsələ qiymətlərin artıb-artmayacağıdır. Nəzəri baxımdan dövlət subsidiyası bəzi müəssisələrdə xidmət haqlarının artırılması üçün stimul yarada bilər. Lakin bazar mexanizmləri bu ehtimalı müəyyən qədər məhdudlaşdırır. Vəfa Yaqublu da hesab edir ki, ciddi qiymət artımı gözlənilmir. Onun sözlərinə görə, özəl müəssisələr xidmət haqqını artırdıqca müsabiqədə qalib gəlmək və daha çox uşağı cəlb etmək imkanlarını itirirlər. Yeni qiymət siyasətini bazardakı rəqabət müəyyən edəcək. Bununla yanaşı, bəzi ekspertlər hesab edirlər ki, yüksək tələbat olan ərazilərdə fəaliyyət göstərən premium bağçalar qiymətlərə yenidən baxa bilər. Lakin orta seqmentdə çalışan müəssisələrin əksəriyyətinin qiymətləri kəskin artırması real görünmür. Çünki valideynlərin ödəmə qabiliyyəti və bazardakı rəqabət buna imkan verməyə bilər.

## Özəl bağçalara tələbat var

**Son illərdə özəl məktəbəqədər təhsil müəssisələrinə maraq nəzərəçarpacaq dərəcədə artıb.**

Bunun əsas səbəbləri dövlət bağçalarında yerlərin məhdud olması, valideynlərin xarici dil və fərdi inkişaf proqramlarına üstünlük verməsi, eləcə də tam gün xidmət göstərən müəssisələrə tələbatın yüksəlməsidir. Xüsusilə Bakı və Abşeron yarımadasında bəzi özəl bağçalarda yerlər tədris ili başlamazdan aylar əvvəl tam dolur.

Məktəbəqədər təhsilə cəlbetmə göstəriciləri də artım nümayiş etdirir. Son tədris ilində 86 mindən çox beşyaşlı uşaq məktəbəhazırlıq qruplarında, 24 mindən çox uşaq isə icma əsaslı məktəbəqədər hazırlıq qruplarında təhsil alıb. Bundan əlavə, valideyn-dövlət-özəl əməkdaşlığı layihəsi çərçivəsində artıq 4 mindən çox uşaq maliyyə dəstəyindən yararlanıb.

Yeni maliyyələşdirmə mexanizminin özəl bağçalar üçün də yeni imkanlar yaratması gözlənilir. Dövlət dəstəyi sayəsində bu müəssisələr daha çox uşaq qəbul edə, fəaliyyətlərini genişləndirə və yeni filiallar aça bilərlər. Bu isə təkcə məktəbəqədər təhsilin əlçatanlığını artırmayacaq, həm də sektorda yeni iş yerlərinin yaranmasına səbəb olacaq.

Bununla belə, yeni sistemin real nəticələri bazarın davranışından asılı olacaq. Əgər rəqabət mühiti qorunarsa, dövlət subsidiyası valideynlərin xərclərinin azalmasına və daha çox ailənin özəl bağçalardan yararlanmasına şərait yarada bilər. Əks halda, bəzi müəssisələrin qiymət siyasətində dəyişiklik etməsi də istisna deyil. İstənilən halda, qəbul edilən qərar məktəbəqədər təhsil sektorunda dövlət və özəl tərəfdaşlığının genişləndirilməsi istiqamətində mühüm addım hesab olunur. Onun qiymətlərə, xidmət keyfiyyətinə və bazarın inkişafına real təsiri isə qarşıdakı tədris ilində daha aydın görünəcək.

## Məktəbəqədər təhsilin əhatəsi genişlənəcək

■ **Mövzu ilə bağlı Azərbaycan Gənc Alim, Doktorant və Magistrlər Cəmiyyətinin sədri, təhsil üzrə ekspert İlqar Orucov hesab edir ki, tətbiq olunan yeni maliyyələşmə modeli məktəbəqədər təhsil sahəsində həm sosial, həm də iqtisadi baxımdan mühüm dəyişikliklərə səbəb olacaq.**

Onun sözlərinə görə, valideyn-dövlət-özəl əməkdaşlığı modeli təhsil xərclərinin üç tərəf arasında bölüşdürülməsini nəzərdə tutan müasir maliyyələşmə mexanizmidir. Bu yanaşma dövlət bağçalarında yer çatışmazlığının aradan qaldırılmasına, məktəbəqədər təhsilin əhatə dairəsinin genişlənməsinə və özəl sektorun potensialından daha səmərəli istifadə olunmasına imkan yaradacaq. Ekspert bildirir ki, yeni model dövlət üçün də maliyyə baxımından daha səmərəlidir. Belə ki, yeni bağça binalarının tikintisinə böyük vəsait yönəltmək əvəzinə, mövcud özəl bağçaların imkanlarından istifadə etməklə daha çox uşağın məktəbəqədər təhsilə cəlb edilməsi mümkün olacaq. Bu isə həm dövlət büdcəsinə qənaət etməyə, həm də özəl təhsil sektorunun inkişafını sürətləndirməyə xidmət edəcək.

İ.Orucovun fikrincə, yeni sistem bazarda sağlam rəqabəti də gücləndirəcək. Dövlət sifarişindən yararlanmaq istəyən özəl bağçalar xidmət keyfiyyətini artırmağa, maddi-texniki bazasını gücləndirməyə və valideynlər üçün daha cəlbedici təhsil mühiti yaratmağa çalışacaqlar. Nəticədə rəqabət qiymət üzərində deyil, daha çox keyfiyyət üzərində formalaşacaq.

*“ Tətbiq olunan yeni maliyyələşmə modeli məktəbəqədər təhsil sahəsində həm sosial, həm də iqtisadi baxımdan mühüm dəyişikliklərə səbəb olacaq*

*Dövlət dəstəyi həmin ailələrin xərclərinin bir hissəsini qarşılayacağı üçün daha çox uşaq məktəbəqədər təhsilə cəlb olunacaq*

Bununla yanaşı, ekspert hesab edir ki, mexanizmin uğurlu olması üçün ciddi nəzarət sistemi qurulmalıdır. Onun sözlərinə görə, dövlət subsidiyasından sui-istifadə hallarının qarşısı alınmalı, yalnız müəyyən edilmiş standartlara cavab verən və keyfiyyətli xidmət göstərən özəl məktəbəqədər təhsil müəssisələri bu proqramdan yararlana bilməlidir.

## Valideynlərin maliyyə yükü azalacaq

■ **Təhsil məsələləri üzrə ekspert Elçin Əfəndi də hesab edir ki, yeni maliyyələşmə modeli valideynlərin maliyyə yükünü azaltmaqla yanaşı, özəl məktəbəqədər təhsil xidmətlərini daha geniş əhali qrupu üçün əlçatan edəcək.** Onun sözlərinə görə, bu gün bir çox ailə yüksək xidmət haqlarına görə özəl bağçalardan istifadə edə bilmir. Dövlət dəstəyi həmin ailələrin xərclərinin bir hissəsini qarşılayacağı üçün daha çox uşaq məktəbəqədər təhsilə cəlb olunacaq.

Ekspertin fikrincə, bunun nəticəsində məktəbəqədər təhsilin əhatə dairəsi genişlənəcək, uşaqlar məktəbə daha hazırlıqlı başlayacaq və uzunmüddətli perspektivdə ölkənin təhsil göstəricilərinə müsbət təsir göstərəcək.

*✍ Sevinc*

# Əmək bazarında yeni iş modeli

***Azərbaycanda əmək bazarında yeni iş modelinin tətbiqinə hazırlıq görülür. Belə ki, “Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair 2026-2030-cu illər üçün Tədbirlər Planı”nda beynəlxalq təcrübəyə əsaslanan çevik iş vaxtı rejiminin formalaşdırılması nəzərdə tutulur. Bu model işçilərə iş gününün başlanma və bitmə saatlarını müəyyən çərçivələr daxilində sərbəst seçmək imkanı yaratmaqla yanaşı, iş və şəxsi həyat arasında tarazlığın gücləndirilməsini, əmək məhsuldarlığının artırılmasını və müasir əmək bazarının tələblərinə uyğun iş mühitinin formalaşdırılmasını hədəfləyir.***



Cəmiyyət

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumata görə, nəzərdə tutulan model Beynəlxalq Əmək Təşkilatının və digər qabaqcıl ölkələrin təcrübəsinə əsaslanır. Çevik iş vaxtı rejimi işçinin həftəlik qanunvericiliklə müəyyən edilmiş 40 saatlıq iş normasını tam yerinə yetirməsi şərti ilə iş gününə nə vaxt başlayacağını və nə vaxt bitirəcəyini müəyyən edilmiş zaman intervalı çərçivəsində seçməsinə imkan verir. Başqa sözlə, iş vaxtının ümumi müddəti dəyişməsə də, işçinin gündəlik qrafiki daha çevik təşkil olunur.

Beynəlxalq təcrübədə bu model adətən məcburi iş saatları və çevik giriş-çıxış vaxtları prinsipi əsasında tətbiq edilir; məsələn: işçi işə səhər saat 06:00 ilə 10:00 arasında başlaya bilər. Gün ərzində bütün əməkdaşların birlikdə çalışmasının vacib olduğu müəyyən əsas saatlar da müəyyən edilir. Belə yanaşma həm müəssisənin fəaliyyətinin səmərəli təşkilinə imkan verir, həm də işçilərin şəxsi həyatını və gündəlik planlarını daha rahat qurmasına şərait yaradır. Nazirliyin məlumatına görə, çevik iş vaxtı rejimi daha çox informasiya texnologiyaları, maliyyə sektoru, təhsil müəssisələri, dövlət idarəçiliyinin inzibati və analitik istiqamətləri kimi sahələr üçün uyğun hesab olunur. Bununla yanaşı, azyaşlı uşağı olan valideynlər, əlilliyi olan şəxslər, təhsil alan əməkdaşlar, eləcə də məsafədən və ya hibrid formatda çalışan işçilər üçün də bu model daha əlverişli sayılır. Fasiləsiz fəaliyyət göstərən səhiyyə, istehsalat, nəqliyyat və digər növbəli iş rejimi tələb edən sahələrdə isə çevik iş vaxtının xüsusi tənzimləmə mexanizmləri ilə tətbiqi nəzərdə tutulur.

Nazirlik vurğulayır ki, yeni iş rejiminə keçid qısa müddətdə deyil, mərhələli şəkildə həyata keçiriləcək. Tədbirlər Planına uyğun olaraq, 2026-2030-cu illər ərzində əvvəlcə beynəlxalq təcrübə ətraflı öyrəniləcək, hüquqi və institusional təhlillər aparılacaq, daha sonra isə müvafiq normativ hüquqi aktlar hazırlanaraq modelin tətbiqinə başlanılacaq. Bu yanaşma çevik iş vaxtı rejiminin ölkənin əmək bazarının xüsusiyyətlərinə uyğunlaşdırılmasına və tətbiq zamanı yarana biləcək problemlərin minimuma endirilməsinə xidmət edir. Yeri gəlmişkən, son illərdə dünyanın bir çox ölkəsində çevik və hibrid iş modelləri sürətlə genişlənir. Xüsusilə pandemiyadan sonra iş prosesinin təşkili ilə bağlı yanaşmalar dəyişib və bir çox müəssisə daha çevik idarəetmə modelinə üstünlük verməyə başlayıb. Azərbaycanda da bu istiqamətdə atılacaq addımlar əmək münasibətlərinin müasirləşdirilməsi baxımından mühüm yenilik hesab olunur.

*“ Bu modeldə işçi müəyyən edilmiş əsas iş saatlarında iş yerində olur, qalan iş vaxtını isə öz qrafikinə uyğun şəkildə planlaşdıra bilir*

Mütəxəssislərin fikrincə, model düzgün hüquqi baza və effektiv tətbiq mexanizmləri ilə həyata keçirilərsə, həm işçilərin məmnunluğunu artıracaq, həm də müəssisələrdə əmək məhsuldarlığının yüksəlməsinə, işçi dövriyyəsinin azalmasına və daha səmərəli iş mühitinin formalaşmasına töhfə verəcək.

■ **Mövzu ilə bağlı Milli Məclisin deputatı Vüqar Bayramov bildirir ki, Prezident tərəfindən təsdiq edilən 2026-2030-cu illər üzrə Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair Tədbirlər Planı əmək bazarında yeni yanaşmaların tətbiqini və məşğulluğun artırılmasını hədəfləyir.**

Onun sözlərinə görə, bu istiqamətdə əsas yeniliklərdən biri də dünyanın bir çox ölkəsində uğurla tətbiq olunan çevik iş rejimi modellərinin Azərbaycan əmək bazarına gətirilməsidir.

Deputat qeyd edir ki, beynəlxalq praktikada çevik iş rejiminin müxtəlif formaları mövcuddur. Onlardan biri hibrid iş modelidir. Bu sistemdə əməkdaşlar həftənin müəyyən günlərini ofisdə, qalan günlərini isə məsafədən çalışaraq keçirirlər. Digər geniş yayılmış model isə sıxılmış iş həftəsidir. Bu zaman həftəlik iş saatları işçi ilə işəgötürən arasında razılaşma əsasında dörd iş gününə bölünür və işçiyə əlavə istirahət günü verilir. V.Bayramovun sözlərinə görə, çevik iş vaxtı modeli də beynəlxalq praktikada geniş istifadə olunur. Bu modeldə işçi müəyyən edilmiş əsas iş saatlarında iş yerində olur, qalan iş vaxtını isə öz qrafikinə uyğun şəkildə planlaşdıra bilir. Bundan başqa, işin bölüşdürülməsi modeli çərçivəsində bir vəzifənin iki yarımştat əməkdaş arasında paylaşdırılması da tətbiq edilir. Son illər isə nəticə əsaslı iş modeli daha çox yayılmağa başlayıb. Bu sistemdə işçinin fəaliyyəti iş yerində keçirdiyi vaxta görə deyil, qarşıya qoyulan tapşırıqları hansı keyfiyyətlə və hansı müddətdə yerinə yetirməsinə əsasən qiymətləndirilir.

*✍ Sevinc*

ədib

***Azərbaycan poeziyasında milli yaddaşın, tarixi şüurun və vətənçilik düşüncəsinin bədii ifadəsi hər zaman xüsusi yer tutmuşdur. Bu ənənə klassik ədəbiyyatdan başlayaraq müasir dövrə qədər müxtəlif sənətkarların yaradıcılığında davam etmiş, hər dövr öz tarixi hadisələrini, qəhrəmanlarını və mənəvi dəyərlərini poeziyanın dili ilə gələcək nəsillərə çatdırmışdır. Müasir Azərbaycan poeziyasında bu xətti uğurla davam etdirən qələm sahiblərindən biri də tanınmış hərbçi-şair Zaur Ustacdır. Onun 13 noyabr 2020-ci ildə - Azərbaycanın Vətən müharibəsində qazandığı tarixi Zəfərdən dərhal sonra qələmə aldığı “Övladıyam” şeiri yalnız poetik nümunə deyil, həm də milli kimliyin, tarixi yaddaşın və dövlətçilik ideyasının bədii manifestidir.***

# Zaur Ustac yaradıcılığında tarixin izləri

*(“Övladıyam” şeiri əsasında tarixə qısa ekskurs)*



Şeir Azərbaycan tarixinin müxtəlif dövrlərini, qəhrəmanlarını, mənəvi dəyərlərini və milli ideallarını vahid poetik sistemdə birləşdirərək oxucunu minilliklər boyunca davam edən milli mübarizə yoluna aparır. Şeir ilk misralardan etibarən müəllifin kimliyini fərdi yox, milli məzmunda təqdim edir:

Müzəffər Ordunun şanlı əsgəri,
Ərənlər yurdunun ər övladıyam!

Bu misralarda “mən” anlayışı bütöv xalqın simvoluna çevrilir. Şair özünü yalnız bir insan kimi deyil, qalib ordunun döyüşçüsü, Azərbaycanın qəhrəmanlıq ənənələrinin davamçısı kimi təqdim edir. Burada “övlad” sözü bioloji yox, mənəvi və tarixi məna daşıyır. O, xalqın tarixinin, mədəniyyətinin və dövlətçilik ənənələrinin varisi olduğunu bəyan edir.

Şeirin diqqət çəkən əsas xüsusiyyətlərindən biri tarixi şəxsiyyətlərin ardıcıl və sistemli şəkildə poetik mətnə daxil edilməsidir. Bu şəxsiyyətlər sadəcə ad olaraq çəkilmir, hər biri müəyyən ideyanın rəmzi kimi təqdim edilir.

İlk növbədə Babək obrazı ön plana çıxır:

Zalımın zülmünə təhəmmülüm yox,
Babəklər yurdunun hürr övladıyam!

Babək Azərbaycan tarixində azadlıq ideyasının, mübarizənin və əyilməz iradənin simvoludur. Şair Babəkin adını çəkərkən onu keçmişdə yaşamış tarixi şəxsiyyət kimi deyil, bu gün də yaşayan ruhun daşıyıcısı kimi təqdim edir. Burada “hürr övladıyam” ifadəsi milli istiqlal düşüncəsinin poetik ifadəsinə çevrilir.

Növbəti bənddə müəllif Azərbaycanın böyük mütəfəkkirlərinə üz tutur:

Ustadım Nəsimi, sözümüz sözdü,
Ədalət, həqiqət bağrımda közdü

Burada İmadəddin Nəsimi sadəcə klassik şair deyil, həqiqətin və cəsarətin rəmzidir. Nəsimi ömrü boyu söylədiyi həqiqət uğrunda ölümə gedən mütəfəkkir idi. Zaur Ustac həmin mənəvi xətti davam etdirərək göstərir ki, həqiqət uğrunda mübarizə Azərbaycan insanının xarakterinə çevrilmişdir.

Eyni bənddə yer alan ”Mövlalar yurdunun nur övladıyam” misrası isə Azərbaycanın yalnız qəhrəmanlar deyil, həm də müdriklər, sufilər və mənəviyyat sahibləri yetişdirən məkan olduğunu vurğulayır.

Şair üçün tarix yalnız döyüş meydanı deyil. Tarix həm də mənəviyyat tarixidir.

Dərviş obrazı bunun parlaq nümunəsidir:

Dərvişəm, müqəddəs sayılır təkkəm,
Hülqumdan yuxarı dayanır öfkəm.

Bu misralar insanın daxili kamilliyini ifadə edir. Əsl qəhrəman yalnız qılınc tutan deyil, öz nəfsinə qalib gələn insandır. Burada Azərbaycan sufilik məktəbinin mənəvi dəyərləri poetik dillə təqdim olunur.

Ardınca gələn:

Od, ocaq diyarı tanınır ölkəm,
Alovlar yurdunun nar övladıyam.

misraları Azərbaycanın qədim odlar ölkəsi kimi tanınmasına işarə edir. Od burada yalnız təbii sərvət deyil, həyat enerjisinin, milli ruhun və əbədi dirçəlişin rəmzidir.

Şeirin kulminasiya nöqtələrindən biri Azərbaycan dövlətçiliyinin böyük simaları olan Şah İsmayıl Xətai və Nadir şahın yada salınmasıdır.

Unutma, şah babam Xətai başdı,
Nadir şah, mətədə tərpənməz daşdı.

Burada Xətai yalnız hökmdar deyil, Azərbaycan dövlətçilik tarixinin memarı kimi təqdim olunur. Nadir şah isə sarsılmaz iradənin, güclü dövlət idarəçiliyinin rəmzidir.

Müəllif bu tarixi silsiləni müasir dövrə gətirərək yazır:

İlham, nə keçilməz sədləri aşdı

Beləliklə, şeir tarixdə qalmır. Keçmişlə bu gün arasında ideoloji körpü qurulur. Müəllif göstərmək istəyir ki, Azərbaycan dövlətçiliyinin inkişaf xətti fasiləsiz davam edir və müasir Zəfər həmin tarixi yolun məntiqi nəticəsidir.

Növbəti bənd xalq qəhrəmanlığı ideyasını daha da genişləndirir:

Tarixdə Nəbisi, Koroğlusu var,
Gen dünya yağıya daim olub dar

Burada xalq qəhrəmanı Koroğlu ilə dini-mənəvi qəhrəmanlıq eyni mətn daxilində birləşdirilir. Şair göstərir ki, xalqın qəhrəmanlıq ənənəsi yalnız saraylardan deyil, xalqın öz bağrından doğmuşdur. “Düşmən qarşımızda yenə oldu xar” misrası isə Vətən müharibəsində qazanılmış tarixi Zəfərin poetik ümumiləşdirilməsidir.

Şeirin son iki bəndi artıq fəlsəfi xarakter daşıyır.

Göydən Yer üzünə ərmağan, payam,
Gündüzlər Günəşəm, gecələr Ayam

Burada insan kainatın ayrılmaz hissəsi kimi təqdim olunur. Günəş, Ay və ulduz obrazları milli ruhun əbədiliyini ifadə edir.

Ən maraqlı misralardan biri isə budur:

Ən parlaq ulduzdan törəyən boyam

Bu poetik fikir qədim türk mifologiyasındakı göy mənşəli xalq ideyasını xatırladır. Türk xalqlarının mənəvi yaddaşında göy, ulduz və Günəş müqəddəslik rəmzləri hesab olunur. Zaur Ustac həmin qədim mifoloji qatları müasir poetik düşüncə ilə sintez edir.

Şeirin finalı müəllif yaradıcılığının fəlsəfi mahiyyətini əks etdirir:

Min bir anlamı var adi “heç”in də,
Aqillər yurdunun pir övladıyam!

Bu misralar təsəvvüf fəlsəfəsinin əsas ideyalarından biri olan “heçlik” anlayışını yada salır. Burada “heç” yoxluq deyil; kamilliyə aparan mənəvi mərhələdir. Şair özünü yalnız tarixin deyil, həm də hikmət məktəbinin davamçısı kimi təqdim edir. “Övladıyam” şeirində diqqət çəkən əsas cəhətlərdən biri tarixin xronologiya şəklində deyil, milli yaddaş sistemi kimi təqdim olunmasıdır. Babəkdən Nəsimiyə, Xətaidən Nadir şaha, Koroğludan müasir Azərbaycan Ordusuna qədər uzanan xətt vahid ideyanın - milli varlığın və dövlətçilik ruhunun ifadəsinə çevrilir.

Bu əsərdə tarix sadəcə keçmiş hadisələrin xatırlanması deyil. Tarix yaşayan ruhdur, danışan yaddaşdır, bu günün mənəvi dayağıdır. Müəllif keçmişi nostalji hisslərlə deyil, gələcəyin quruculuğunun ideoloji təməli kimi təqdim edir. Zaur Ustacın poetik üslubunda diqqət çəkən digər mühüm xüsusiyyət tarixi faktlarla poetik emosiyanın harmoniyasıdır. Şair nə tarixçiyə çevrilir, nə də tarixi yalnız bədii bəzək elementi kimi istifadə edir. Tarix onun üçün milli xarakteri formalaşdıran canlı məktəbdir.

Bu baxımdan “Övladıyam” müasir Azərbaycan poeziyasında milli özünüdərkin poetik nümunələrindən biri hesab oluna bilər. Şeir oxucuda həm fəxr hissi oyadır, həm tarixi yaddaşı yeniləyir, həm də gələcək nəsillərə mənəvi məsuliyyət hissi aşılayır. Nəticə etibarilə demək olar ki, Zaur Ustac yaradıcılığında tarix keçmişə aid anlayış deyil, bu günü yaşadan və gələcəyi istiqamətləndirən mənəvi qüvvədir. “Övladıyam” şeiri bu baxımdan milli tariximizin, dövlətçilik ənənələrimizin, qəhrəmanlıq salnaməmizin və mənəvi dəyərlərimizin poetik ensiklopediyası təsiri bağışlayır. Burada hər misra Azərbaycanın minillik tarixindən gələn bir səs, hər bənd isə xalqın milli yaddaş kitabının yeni səhifəsi kimi səslənir.

Məhz buna görə də “Övladıyam” təkcə Zaur Ustac yaradıcılığının deyil, müasir Azərbaycan vətənpərvərlik poeziyasının da diqqətəlayiq nümunələrindən biri kimi qiymətləndirilə bilər. Şair tarixi yalnız xatırlatmır; onu yenidən yaşadır, milli ruhun ayrılmaz hissəsinə çevirir və oxucuya bir həqiqəti xatırladır: tarixini yaşadan xalq gələcəyini də özü yazır.

*✍ Tuncay Şəhrili,*
*hərbçi, tarixçi, filosof*
*Bakı*

# Şüalanma şübhəsi olduqda hansı tədbirlər görülür?

*Əhalinin radiasiyadan mühafizəsinin təmin edilməsi və mümkün radioloji risklərin vaxtında aşkar olunması məqsədilə Səhiyyə Nazirliyi Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin Radiasiya gigiyenası bölməsinə daxil olan radiasiya ilə bağlı müraciətlər operativ qaydada araşdırılır. Bu prosesin əsas məqsədi mümkün radioloji təhlükələrin vaxtında müəyyən edilməsi və əhalinin radiasiya təhlükəsizliyinin təmin olunmasıdır".*



> “Zərurət yarandıqda instrumental ölçmələr aparılır, torpaq, su və ya hava nümunələri götürülərək laborator müayinələrə təqdim edilir

## Sağlamlıq

Bu fikirləri "Sağlam radio"nun (93 FM) "Sağlam həyat" verilişində Səhiyyə Nazirliyi Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin Radiasiya gigiyenası bölməsinin müdiri İlham Qarayev səsləndirib. Onun sözlərinə görə, vətəndaşlardan, müəssisələrdən və ya dövlət qurumlarından daxil olan radiasiya ilə bağlı müraciətlər - məsələn, yaşayış binasının yaxınlığında və ya zirzəmisində şüalanma şübhəsi, ərazi və torpaq sahələrində radiasiyanın mövcudluğu ehtimalı və digər oxşar hallar - xüsusi prosedur əsasında araşdırılır.

"Daxil olan hər bir müraciət ilk növbədə qeydiyyata alınır. Daha sonra müraciətçi ilə əlaqə saxlanılaraq hadisə barədə ətraflı məlumat toplanır və bölmənin mütəxəssisləri tərəfindən ilkin qiymətləndirmə aparılır. Müraciətin mahiyyəti və ehtimal olunan şüalanma mənbəyi barədə zəruri məlumatlar əldə edildikdən sonra münasib vaxt müəyyən edilərək hadisə yerində baxış və radioloji monitorinq həyata keçirilir. Zərurət yarandıqda instrumental ölçmələr aparılır, torpaq, su və ya hava nümunələri götürülərək laborator müayinələrə təqdim edilir. Nümunələr Səhiyyə Nazirliyi Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin akkreditasiyadan keçmiş radioloji laboratoriyasında spektrometrik və radiometrik üsullarla analiz olunur, radionuklidlərin tərkibi müəyyən edilir". İlham Qarayev bildirib ki, araşdırma başa çatdıqdan sonra müraciət edən şəxsə laborator müayinələrin nəticələrini əks etdirən protokol və mütəxəssis rəyi təqdim olunur. "Bu proses tam şəffaf şəkildə və dövlət tərəfindən təsdiq edilmiş metodikalar əsasında həyata keçirilir. Görülən işlər yalnız daxil olan müraciətlərin araşdırılması ilə məhdudlaşmır. Eyni zamanda ətraf mühitdə radioloji vəziyyətin davamlı monitorinqinə, mümkün radioaktiv çirklənmə hallarının vaxtında aşkarlanmasına və əhalinin radiasiya təhlükəsizliyinin təmin olunmasına xidmət edir", - deyə bölmə müdiri vurğulayıb.

✍ Sevinc

## HƏFTƏ REYTİNQ

### Həftənin ÜZRÜ



İspaniya millisinin yarımmüdafiəçisi Lamin Yamal DÇ-2026 finalından sonra Argentina millisinin kapitanı Lionel Messi ilə aralarında baş tutan dialoqu açıqlayıb: "Leo Messi mənim üçün ən böyük futbolçudur. O, mənim kumirim, hər şeyimdir. Yanına yaxınlaşıb sadəcə məni bağışlamasını dedim. O isə mənə belə cavab verdi: "Təbrik edirəm, buna daha çox sən layiq idin". Sonra onu qucaqladım, öpdüm və təsəlli verməyə çalışdım. Belə məqamlar futboldan daha böyük məna daşıyır. Mən Messiyə hər zaman hörmət edəcəyəm".

### Həftənin QARŞILANMASI



2026-cı il dünya çempionu olan İspaniya millisi vətənə möhtəşəm şəkildə qayıdıb. Madriddə təşkil olunan qələbə paradında 1 milyondan çox azarkeş küçələrə axışaraq, dünya çempionlarını alqışlayıb. İspaniya millisini daşıyan üstüaçıq avtobus paytaxtın mərkəzi küçələri ilə hərəkət edərkən yüz minlərlə azarkeş "İspaniya!" şüarları səsləndirib. Futbolçular dünya kubokunu havaya qaldıraraq, qələbə sevincini azarkeşlərlə bölüşüblər.

### Həftənin QADAĞASI



Nikaraqua Prezidenti Daniel Orteqa müxalifətin hakimiyyətə gəlişinin qarşısını almaq üçün ölkədə bir daha seçkilərin keçirilməyəcəyini elan edib. "Onlar hökuməti ələ keçirməyə, hakimiyyəti zəbt etməyə cəhd edə bilməsinlər deyə burada daha heç bir seçki keçirilməyəcək", - deyə o bildirib. 2007-ci ildən hakimiyyətdə olan Orteqa parlament və müvafiq qurumlarla qanunlar üzərində işləyəcəklərini söyləyib: "Bizə sui-qəsdçilərin və öz ölkəsinə xəyanət edən xainlərin qarşısında divar, sədd çəkəcək qanunlar lazımdır".

### Həftənin QAZANCI



İspaniyanın futbol üzrə dünya çempionatının finalında Argentinanı məğlub edərək ikinci dəfə dünya çempionu olması ölkəyə təkcə idman uğuru deyil, həm də ciddi iqtisadi dividendlər gətirib. Ferran Torresin əlavə vaxtda vurduğu qolla qazanılan çempionluq İspaniya Futbol Federasiyasına FIFA-dan rekord məbləğdə - 50 milyon dollar (təxminən 43,7 milyon avro) mükafat qazandırıb. Bu vəsait 48 komandalı dünya çempionatı üçün ayrılmış 655 milyon dollarlıq mükafat fondunun bir hissəsidir.

### Həftənin DÖRDÜZLƏRİ



Avstraliyanın Kvinslend ştatında yaşayan 34 yaşlı Cenitar Naamoana təbii yolla tək yumurta dördəmləri dünyaya gətirib. Brisben sakini Naamoana iyulun 14-də dörd körpə dünyaya gətirib. Körpələr 28 həftə 4 günlük doğulsalar da, həkimlər onların vəziyyətinin stabil olduğunu bildiriblər.

### Həftənin QALİBİ



Çində yemək çatdırılması ilə məşğul olan 56 yaşlı Vanq Cibinq çatdırılmalar arasında yazdığı şeirlərlə ölkənin ən nüfuzlu ədəbi mükafatlarından biri olan Lu Xun Ədəbi Mükafatına layiq görülüb. Vanqın 2024-cü ildə nəşr olunan "Aşağı uçuş" adlı kitabı təxminən 200 yemək kuryeri ilə apardığı söhbətlər və onların gündəlik həyatından ilhamlanaraq qələmə aldığı şeirlərdən ibarətdir.

✍ Azad Əliyev




# "Media Kuboku-2026" minifutbol turniri başa çatıb

**Azərbaycan Milli Mətbuat Günü münasibətilə jurnalistlər arasında minifutbol turniri təşkil olunub. Turnir "Avrora Qrup"un baş sponsorluğu, Yurd.Media və İdman Araşdırmalar Mərkəzinin təşkilatçılığı ilə Qusar Olimpiya İdman Kompleksində keçirilib.**

İki gün davam edən yarışda paytaxt və regionlarda fəaliyyət göstərən media qurumlarının nümayəndələri iştirak ediblər. Komandalar Azərbaycan milli mətbuatının tarixində mühüm yer tutan "Əkinçi", "Ziya", "Həyat" və "Tərəqqi" nəşrlərinin adlarını daşıyıblar.

Turnirin 3-cü yer uğrunda görüşündə televiziya əməkdaşlarından ibarət "Həyat" komandası informasiya agentliklərinin jurnalistlərindən formalaşan "Ziya" kollektivi ilə qarşılaşıb. Görüş "Həyat" komandasının 7:1 hesablı qələbəsi ilə başa çatıb. Final oyununda isə idman jurnalistlərindən ibarət "Tərəqqi" komandası ictimai-siyasi media nümayəndələrindən formalaşan "Əkinçi" komandası ilə qarşılaşıb. Gərgin idman mübarizəsi şəraitində keçən oyunda "Tərəqqi" komandası 2:0 hesabı ilə qalib gələrək çempion olub. Turnirin sonunda keçirilən mükafatlandırma mərasimində "Tərəqqi", "Əkinçi" və "Həyat" komandaları müvafiq olaraq qızıl, gümüş və bürünc medallarla təltif olunublar. Bütün iştirakçılara fəxri fərmanlar təqdim edilib. Turnirin ən yaxşı qapıçısı "Ziya" komandasının üzvü Samir Güləliyev, ən yaxşı oyunçusu isə "Tərəqqi"nin kapitanı Murad Şirinov seçilərək xüsusi mükafatla təltif olunublar.

Mərasim zamanı şəhid ailələrinin üzvlərinə fəxri fərmanlar və baş sponsor "Avrora Qrup"un hədiyyələri təqdim edilib. Eyni zamanda, turnirə ardıcıl beş ildir göstərdiyi dəstəyə görə "Avrora Qrup"a "Etibarlı Tərəfdaş" plaketi verilib.

# Motosikletlər təcili tibbi yardım xidmətinə cəlb olunacaq



***TƏBİB təcili tibbi yardımda yeni "Ambucycle" motosiklet xidmətini tətbiq edir. TƏBİB-dən bildirilib ki, təcili tibbi yardım xidmətinin operativliyinin artırılması, xüsusilə nəqliyyat sıxlığının müşahidə olunduğu ərazilərdə və pik saatlarda vətəndaşlara daha çevik ilkin tibbi yardımın göstərilməsi məqsədilə yeni "Ambucycle" xidmət modelinin tətbiqinə başlanılıb.***

Qeyd olunub ki, ölkədə ilk dəfə olaraq motosikletlərin təcili tibbi yardım xidmətinə cəlb olunduğu model ilkin mərhələdə pilot layihə kimi Bakı şəhərində tətbiq ediləcək.

Bildirilib ki, zəruri tibbi avadanlıq və ləvazimatlarla təchiz edilmiş "Ambucycle" xüsusi hazırlıq keçmiş feldşer tərəfindən idarə olunur. Motosiklet briqadası hadisə yerində ürək-ağciyər reanimasiyası (BLS və ALS), ürəyin qapalı masajı, defibrilyasiya, ağrının aradan qaldırılması, sınıqlar zamanı immobilizasiya və digər təxirəsalınmaz tibbi müdaxilələri həyata keçirə bilir. Məlumata görə, zərurət yarandıqda pasiyentin vəziyyətinə uyğun olaraq tam təchizatlı təcili tibbi yardım briqadasının hadisə yerinə cəlb olunması da koordinasiya edilir. Layihədə iştirak edən feldşerlər İ.M. Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının Tədris-Simulyasiya və Akkreditasiya Mərkəzində, Yeni Klinikada və Respublika Təcili və Təxirəsalınmaz Tibbi Yardım Mərkəzində nəzəri və praktiki təlimlər keçiblər.

TƏBİB qeyd edib ki, bu xidmət modeli İsrail və Böyük Britaniya kimi ölkələrdə uğurla tətbiq olunur və təcili tibbi yardımın hadisə yerinə çatma müddətinin azaldılması, kritik hallarda erkən tibbi müdaxilənin təmin edilməsi baxımından effektivliyini sübut edib.

Pilot mərhələnin nəticələri qiymətləndirildikdən sonra xidmət modelinin tətbiq coğrafiyasının genişləndirilməsi nəzərdən keçiriləcək.

## GÜNÜN FOTOSU



Hindistanda polis zorakılığı

# Özəl bağçalarda qiymətlər artacaq?

**Elçin Əfəndi,**
Təhsil məsələləri üzrə ekspert

Dövlət dəstəyi həmin ailələrin xərclərinin bir hissəsini qarşılayacağı üçün daha çox uşaq məktəbəqədər təhsilə cəlb olunacaq.

⏩ Səh. 7

## STATİSTİKA



**■ Bu ilin yanvar-iyun aylarında neft-qaz sektoruna 3 milyard 163,6 milyon manatlıq vəsait yönəldilib.**

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, hesabat dövründə ölkənin neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 34,3 faiz artıb. Qeyd edək ki, 2025-ci ilin müvafiq dövründə sözügedən göstərici 2 milyard 320,5 milyon manat səviyyəsində olub.



⏩ Səh. 7

# Əmək bazarında yeni iş modeli